RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 24 (8617) ÇƏRŞƏNBƏ, 3 fevral 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Qarabağ tarixi şöhrətini bərpa edəcək

## Şuşanın yenidən qurulmasını diqqət mərkəzində saxlayan İlham Əliyev onu zəbt etmək istəyən məmurlara sərt xəbərdarlıq etdi

Azərbaycanın keçmişi qəhrəmanlıq salnamələri ilə zəngindir. Vətən müharibəsi göstərdi ki, bu gün xalqımız əcdadlarımızdan irsən keçən döyüş ruhunu, vətən eşqini, qalib olmaq əzmini genetik olaraq layiqincə daşıyır. 44 günlük müharibənin hər günü, işğalda olan hər bir rayonumuzun, şəhər və kəndimizin azad olunması müasir tariximizin qəhrəmanlıq səhifəsidir. Qarabağın qəlbi Şuşanın erməni tapdağından xilas edilməsi isə bu müqəddəs savaşın zirvəsi, ən böyük hadisəsi, Azərbaycanın mühüm strateji qələbəsi oldu.

### Şuşa Azərbaycan əsgərinin qanı və canı bahasına azad edildi

Prezident İlham Əliyevin noyabrın 8-də Şəhidlər xiyabanından xalqa müraciətində Şuşanın azad olunduğunu bəyan etməsi Azərbaycanın hər yerində böyük coşqu ilə qarşılandı, xalqımız bu tarixi qələbəni qeyd etmək üçün küçələrə axışdı. Ali Baş Komandan İlham Əliyev sərkərdə qətiyyəti ilə Şuşanı özümüzə - xalqımıza qaytardı. Bu qələbənin müəllifi kimi İlham Əliyev 28 illik həsrətə son qoydu. Şuşanı düşmən tapdağından azad etməklə müstəqilliyimizi və dövlətçiliyimizi şərəfləndirdi. Şuşaya Azərbaycan bayrağını sancmaqla qürurumuzu yüksəltdi. Ən əsası, Prezident İlham Əliyev tarixi ədaləti bərpa etdi.

Şuşa Azərbaycan əsgərinin qanı və canı bahasına azad edildi. Keçilməz dağları aşan oğullar Şuşanı azad etməklə bütün dünyaya Azərbaycan əsgərinin gücünü, yenilməzliyini, yüksək döyüş ruhunu nümayiş etdirdi. Qədim yurd yerimiz, Qarabağ xanı Pənahəli xanın saldığı, milli mədəniyyətimizin, musiqimizin beşiyi olan Şuşa şəhid qanları ilə daha da müqəddəsləşdi xalqımız üçün. "Şuşa əməliyyatı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq. Şuşa uğrunda gedən döyüşlərdə şəhid olmuş qəhrəman övladlarımızın əziz xatirəsi bizim qəlbimizdə əbədi yaşayacaq. Şuşanı azad edərkən Azərbaycan əsgər və zabiti qəhrəmanlıq, peşəkarlıq, fiziki güc, yüksək milli ruh göstərib. O, Daşaltı istiqamətindən, digər istiqamətlərdən, sıldırım qayalardan qalxaraq, işğalçıları məhv edərək Şuşanı azad edib, demək olar ki, əliyalın, əlində süngü, bıçaq, yüngül silah topa, tanka qarşı vuruşub", - deyə İlham Əliyev bildirib.

Təsadüfi deyil ki, qəhrəman əsgərlərimizin Şuşanı azad etdiyi gün - noyabrın 8-i tariximizə Zəfər Günü kimi həkk olundu.

### Hər binası, hər küçəsi xalqımızın milli dəyərlərinin daşıyıcısıdır

Bu gün qarşıda duran vəzifələrdən biri işğaldan azad edilmiş ərazilərin yenidən qurulması, doğma yurd yerlərinə qayıdacaq məcburi köçkünlərin layiqli həyat şəratinin təmin edilməsidir. Hələ əməliyyatların getdiyi günlərdən ilkin infrastruktur layihələrinin həyata keçirilməsinə başlanılmışdı.

Ardı 5-ci səh.

## Azad edilən ərazilərdə bərpa və şəhərsalma prosesində Türkiyə də iştirak edəcək



Fevralın 2-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyənin Milliyyətçi Hərəkat Partiyasının sədr müavini, Ankaradan deputat Mevlüt Karakayanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, Milliyyətçi Hərəkat Partiyasının sədr müavini Mevlüt Karakaya partiyanın sədri Dövlət Baxçalının salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, dövlətimizin başçısının rəhbərliyi ilə Vətən müharibəsində qazanılan Zəfər münasibətilə Prezident İlham Əliyevi təbrik etdi.

Ardı 2-ci səh.

## Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan gənclərini təbrik edib



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Gənclər Günü münasibətilə rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:

"Bu gün 2 Fevral - Azərbaycan Gəncləri Günüdür. Bu əlamətdar gün münasibətilə bütün gənc dostlarımızı səmimi-qəlbdən təbrik edirəm! Qoy sizin həyatınız daim parlaq, maraqlı və mənalı olsun! Uca Tanrıdan hər birinizə möhkəm cansağlığı, uzun ömür və xoşbəxtlik diləyirəm!"

## "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Müstəqil Azərbaycan iqtisadi, sosial, siyasi və mədəni inkişafının tarixi dönüş mərhələsini yaşamaqdadır. Bu dövrdə ölkədə həyata keçirilən məqsədyönlü sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın güclənməsini və müasirləşməsini təmin etmişdir. Son 17 ildə dinamik inkişaf əsasında ölkə iqtisadiyyatının həcmi 3 dəfədən çox böyümüş, güclü sosial-iqtisadi infrastruktur yaradılmış, pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi əhəmiyyətli azalmışdır. Mövcud maliyyə imkanları tarixi maksimuma çatdırılıb və ölkə yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənmişdir.

Artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı vermişdir. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilmişdir. Bütün bunlar Azərbaycanın regionda iqtisadi rolunu yüksəltmiş, xarici təsirlərə davamlı olmasına və müstəqil dövlət kimi suverenliyinin bərpasına möhkəm zəmin yaratmışdır.

Əldə edilən iqtisadi üstünlük, uzun illər formalaşdırılmış ictimai-siyasi və sosial-iqtisadi bünövrə ölkənin hərbi qüdrətini də yüksəltmişdir. Bu nailiyyətlər torpaqlarımızın işğaldan azad edilməsi və ərazi bütövlüyünün bərpası ilə nəticələnən tarixi qələbəyə transformasiya olundu. 2020-ci il noyabrın 10-da imzalanmış tarixi Bəyanatla Azərbaycanın siyasi və iqtisadi suverenliyinin təmini işğaldan azad edilmiş ərazilərin mövcud iqtisadi potensialından xalqımızın rifahı üçün tam istifadə olunmasına geniş imkanlar yaradır. Əldə edilmiş qələbə qarşıdakı illərdə sistemli və davamlı islahatlarla yeni imkanlara çevriləcəkdir.

Bununla yanaşı, uzun müddətdir ki, qlobal bəlaya çevrilmiş koronavirus pandemiyası ilə aparılan effektiv mübarizə, ümumdövlət məqsədləri naminə həmrəylik təcrübəsi və ərazi bütövlüyünün bərpası irimiqyaslı və dərin islahatların aparılmasına zəruri əsasları gücləndirir. Əvvəlki illərdə aparılmış islahatlar hesabına ölkənin sosial-iqtisadi potensialı artmış, iqtisadiyyatın xarici təsirlərə dözümlülüyü yaxşılaşmışdır. Həyata keçirilən sosial-iqtisadi quruculuq və ərazi bütövlüyünün təmini uzunmüddətli dövrdə Azərbaycanın daha keyfiyyətli inkişaf mərhələsinə keçməsinə, sürətlə inkişaf edən, yüksək rifaha malik lider dövlət olmasına möhkəm əsaslar yaratmışdır.

Müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir.

Qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulmuş məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunun, əsas sosial-iqtisadi inkişaf istiqamətlərinin və buna uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, yeni strateji dövrdə qarşımızda duran məqsədlərə nail olmaq, bunun üçün uyğun siyasət və islahatlar çərçivəsini formalaşdırmaq məqsədilə **qərara alıram:**

1. "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Milli Prioritetlərə (bundan sonra - Milli Prioritetlər) uyğun olaraq "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsini doqquz ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. "2021-2025-ci illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsi hazırlanarkən aşağıdakıları təmin etsin:

2.2.1. qabaqcıl beynəlxalq təşkilatlar və ixtisaslaşmış məsləhətçi şirkətlərlə səmərəli əməkdaşlığın həyata keçirilməsini;

2.2.2. aidiyyəti dövlət orqanlarının (qurumlarının), elmi təşkilatların, mütəxəssislərin və vətəndaş cəmiyyəti təsisatlarının cəlb olunmasını;

2.3. Milli Prioritetlərin həyata keçirilməsi ilə bağlı görülən işlər barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin.

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Aidiyyəti dövlət orqanları (qurumları) Milli Prioritetlərdən irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2021-ci il*



## Yeni elektrik enerjisi qurğuları Qarabağı tezliklə nura qərq edəcək

Erməni vandalları işğal etdikləri torpaqlarımızda 30 il ərzində görünməmiş vəhşiliklər törətmiş, bütün maddi sərvətləri dağıtmışlar. Prezident İlham Əliyevin dediyi kimi, sanki bu yerlərdən vəhşi bir tayfa keçmişdir.

İndi əsas vəzifə bu yerləri bərpa edib əvvəlkindən də yüksək səviyyəyə çatdırmaqdır. Dövlət başçısı çıxışlarında dəfələrlə bəyan edib ki, düşmənin dağıdıb viran qoyduğu torpaqları yenidən dirçəldib gözəl Qarabağımızı cənnətə çevirəcəyik.

Ardı 4-cü səh.

## Vətən savaşının sınanmış dostu

### Azərbaycanın Pakistanla strateji müttəfiqliyi Avrasiyada yeni güc mərkəzini formalaşdırır

Cənubi Qafqaz regionunun lider ölkəsi olan, müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınan Azərbaycan praqmatik, çoxvektorlu və milli maraqlara əsaslanan xarici siyasət kursu həyata keçirir.

Bunun məntiqi və qanunauyğun nəticəsi kimi, ölkəmizin qarşılıqlı faydalı xarakter daşıyan ikitərəfli və çoxtərəfli münasibətləri uğurla inkişaf edir, dostlarımızın və tərəfdaşlarımızın sayı artır, respublikamızın dünya siyasətində təsir imkanları genişlənir.

### Etibarlı tərəfdaş, səmimi dost

Azərbaycanın qlobal müstəvidə güclü aktora çevrilməsi, sözü və imzası eyni çəkiyə malik olan ləyaqətli və müstəqil dövlət kimi tanınması, həmçinin ölkələr arasında əməkdaşlığın möhkəmlənməsinə, təhlükəsizliyə təhdid hallarının aradan qaldırılmasına fundamental töhfələr verməsi aşkar reallıqdır. Azərbaycanın qısa müstəqillik tarixində belə yüksək zirvəyə yüksəlməsində digər amillərlə yanaşı, respublikamızın nüfuzlu beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq etməsi, ayrı-ayrı ölkələrlə strateji müttəfiqlik münasibətlərini getdikcə daha da dərinləşdirməsi mühüm rol oynayır. Deyə bilərik ki, respublikamız həmişə dost ölkələrə qarşılıqlı etimad mühiti çərçivəsində strateji səmimiyyət nümayiş etdirdiyi kimi, öz müttəfiqlərindən də eyni münasibəti görür, onların mənəvi-siyasi dəstəyini alır. Bu baxımdan Azərbaycanla Pakistan arasında formalaşan və illərin sınağından çıxan strateji müttəfiqlik münasibətləri xüsusilə diqqəti cəlb edir.

Strateji müttəfiqlik səviyyəsində olan Azərbaycan-Pakistan münasibətlərindən bəhs edərkən iki ölkə arasında fəal siyasi dialoqun yüksələn xətt üzrə inkişafını xüsusi qeyd edə bilərik. Ümumiyyətlə, münasibətlərin tarixi xronikası və inkişaf dinamikası Pakistan-Azərbaycan dostluğu və strateji tərəfdaşlığının perspektivi barədə müsbət proqnozlar ifadə etməyə əsas verir.

Dost Pakistan Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələr sırasında yer alır. Bu ölkə respublikamızın müstəqilliyini 12 dekabr 1991-ci il tarixində tanıyıb. İki dost ölkə arasında müttəfiqlik əlaqələrinin möhkəmlənməsində qarşılıqlı səfərlər müstəsna rol oynayır. İndiyədək Azərbaycan Prezidenti Pakistana, həmçinin dost ölkənin dövlət başçısı respublikamıza bir neçə dəfə səfər edib. Bu səfərlər zamanı iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlığın dərinləşməsinə möhkəm hüquqi əsaslar yaradan bir sıra mühüm sənədlər imzalanıb. Ümumiyyətlə, indiyədək iki ölkə arasında imzalanan sənədlərin sayı 35-ə çatıb. Bu sənədlər sırasında strateji tərəfdaşlıq haqqında bəyannamə xüsusi önəm daşıyır. Bütövlükdə iki ölkənin dövlət başçısının siyasi iradəsi Azərbaycanla Pakistan arasında çoxşaxəli əməkdaşlıq əlaqələrinin inkişafına güclü impuls verir.

Ardı 3-cü səh.




## Koronavirusdan qlobal səviyyədə ümidverici xəbər

Dünyanın başbəlasına çevrilmiş koronavirus infeksiyası hər gün statistikanı "yeniləməkdə" davam edir. Bu təhlükəli virusa yeni yoluxma və ölüm faktları qeydə alınır.

Ancaq Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) baş direktoru Tedros Adhanom Gebreyesusun koronavirusla bağlı növbəti proqnozu ümidvericidir.

Təşkilat rəhbəri açıqlayıb: "Ardıcıl olaraq üçüncü həftədir ki, bütün dünyada "COVID-19"a yeni yoluxma hallarının sayı azalır. İndiyədək halların artdığı çox ölkə var, lakin qlobal səviyyədə bu ümidverici xəbərdir.

Ardı 6-cı səh.

# Azad edilən ərazilərdə bərpa və şəhərsalma prosesində Türkiyə də iştirak edəcək

*Əvvəli 1-ci səh.*

Prezident İlham Əliyev Dövlət Baxçalının salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Milliyyətçi Hərəkat Partiyasının sədrinə çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı Vətən müharibəsi dövründə Türkiyənin Azərbaycana göstərdiyi siyasi, mənəvi və diplomatik dəstəyi xatırlatdı. Müharibə dövründə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın bəyanatlarının Azərbaycana böyük dəstək olduğunu deyən Prezident İlham Əliyev Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının müttəfiqi olan Milliyyətçi Hərəkat Partiyasının sədri Dövlət Baxçalının da açıqlamalarının siyasi, mənəvi önəm kəsb etdiyini dedi.

Milliyyətçi Hərəkat Partiyasının sədr müavini Mevlüt Karakaya Azərbaycanın işğaldan azad edilən torpaqlarında mədəniyyət və incəsənət təmayüllü məktəbin tikintisi ilə bağlı təşəbbüs barədə dövlətimizin başçısına məlumat verdi. Bu xüsusda Azərbaycanın təhsil naziri və digər rəsmi şəxsləri ilə görüşdüyünü bildirdi.

Prezident İlham Əliyev bu təşəbbüsə görə təşəkkürünü bildirdi, azad edilmiş torpaqlarda aparılan bərpa və şəhərsalma işləri çərçivəsində bu təşəbbüsün nəzərə alınacağını dedi. İşğaldan azad olunan ərazilərdə şəhərlərin baş planlarının hazırlandığını vurğulayan dövlətimizin başçısı məktəb binası üçün münasib yerin seçilməsi məqsədilə müvafiq təlimatlar verəcəyini qeyd etdi.

Söhbət zamanı Azərbaycanla Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin uğurlu inkişaf perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin hərbi qulluqçularına ali hərbi rütbələrin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçularına ali hərbi rütbələr verilsin:

**general-polkovnik ali hərbi rütbəsi**
general-leytenant Arzu Yusif oğlu Rəhimova

**general-mayor ali hərbi rütbəsi**
polkovnik Azad Hüseyn oğlu Əliyevə
polkovnik Natiq Sahib oğlu Qarayevə.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2021-ci il*

## N.S.Qarayevin Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər baş idarəsinin rəisi təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Natiq Sahib oğlu Qarayev Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Sumqayıt şəhər baş idarəsinin rəisi təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2021-ci il*

## 2021-ci il Gənclər üçün Prezident mükafatlarının verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Gənclər üçün Prezident mükafatına namizədlərin seçilməsi üzrə Ekspert Komissiyasının təklifinə əsasən və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən aşağıdakı şəxslərə 2021-ci il Gənclər üçün Prezident mükafatları verilsin:

Abbaszadə Orucəli Saleh oğlu
Abdulova Nərgiz Cövdət qızı
Əhmədov Ramil Bayram oğlu
İsmayıllı İsmayıl Cəfər oğlu
Qarayev Atəş İbrahim oğlu
Qasımov Pərvin Alim oğlu
Qasımzadə Zəhra İsa qızı
Qənbərov Nəcəf Bilal oğlu
Mirzəyeva Səmra Tahir qızı
Pərdəşünas Fərid Bayram oğlu.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2021-ci il*

## Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin fəaliyyətinin təmin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 15 yanvar tarixli 1251 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

1. "Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin Nizamnaməsi" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinin (bundan sonra - Agentlik) nizamnamə fondu onun balansına verilən dövlət əmlakı hesabına formalaşdırılır.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. Agentliyin balansına verilən dövlət əmlakının qiymətləndirilərək Agentliyin nizamnamə fondunda nəzərə alınması üçün müvafiq təkliflərini Agentlik dövlət qeydiyyatına alındığı gündən iki ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. beynəlxalq təcrübə nəzərə alınmaqla "Minatəmizləmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.3. bu Fərmandan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 2 fevral 2021-ci il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz*

# Milli Məclisin sədri İranın Azərbaycandakı səfiri ilə görüşüb

Fevralın 2-də Milli Məclisin sədri Sahibə Qafarova İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, parlamentin sədri qonağı səmimi salamlayaraq bildirib ki, Azərbaycan və İran iki dost və mehriban qonşu ölkələrdir. Bizi bir-birimizə bağlayan tarixi, mədəni və mənəvi dəyərlər münasibətlərimizin qarşılıqlı anlaşma şəraitində inkişafı üçün yaxşı zəmin yaradır.

İkitərəfli əlaqələrimizin dərinləşməsində dövlət başçılarının rolu və siyasi iradəsi mühüm rol oynayır. Bu baxımdan, yüksəksəviyyəli görüşlər, hər iki ölkə prezidentlərinin qarşılıqlı səfərləri, aparılan danışıqlar, ölkələrimiz arasında imzalanmış sənədlər böyük əhəmiyyət daşıyır.

Sədr bildirib ki, Azərbaycan ilə İran arasında yüksəksəviyyəli siyasi dialoq iqtisadi münasibətlərimizə də müsbət təsir edir. Ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi günbəgün artır. Biz belə hesab edirik ki, mövcud potensial bu sahədə daha yüksək göstəricilər əldə etməyə imkan yaradır. Sədr Azərbaycanın onun dövlət müstəqilliyini ilk tanıyan dövlətlərdən biri kimi İran İslam Respublikası ilə həyatın digər sahələrində də əlaqələri dərinləşdirmək niyyətində olduğunu söyləyib.

Sahibə Qafarova münasibətlərimizin inkişafında parlamentlərin rolunu vurğulayaraq hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyətini təqdir edib. Bildirib ki, bu sahədə tərəflər arasındakı mövcud xoş münasibətlər ikitərəfli və çoxtərəfli formatda əməkdaşlıqda özünü büruzə verir. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, deputatlarımızın mütəmadi təmasları ölkələrarası əməkdaşlığın da dərinləşməsinə öz dəyərli töhfəsini verir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən İran İslam Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Seyid Abbas Musəvi ölkəsinin dost və qardaş Azərbaycan ilə əlaqələrin inkişafına böyük maraq göstərdiyini ifadə edib. Bildirilib ki, İran ölkəmizin apardığı Vətən müharibəsində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyib, haqqın və ədalətin tərəfində olub. Səfir 44 günlük hərbi əməliyyatlar zamanı qazanılmış Zəfərə görə xalqımızı və Milli Məclisin sədrini təbrik edib.

Bildirilib ki, hər iki ölkənin yüksəksəviyyəli dövlət rəsmiləri arasında mövcud olan münasibətlər iqtisadi, mədəni, humanitar sahələrə də öz müsbət təsirini göstərir. Heç də təsadüfi deyil ki, əməkdaşlığımız artıq keyfiyyətcə yeni mərhələyə qədəm qoyub.

Münasibətlərimizin bu səviyyəyə çatmasına parlamentlərimiz də öz layiqli töhfəsini verməkdədir. Deputatlarımız arasında keçirilən görüşlər tərəflər arasında fikir mübadiləsi aparmaq baxımından çox önəmlidir. Qeyd edilib ki, İran gələcəkdə nümayəndə heyətlərinin qarşılıqlı səfərlərini intensivləşdirmək, əməkdaşlığımızı daha da dərinləşdirmək niyyətindədir.

Söhbətdə parlamentlərarası əlaqələrin gələcək inkişaf perspektivləri və digər məsələlər barədə danışılıb.

# Milli Məclisin Gənclər və idman komitəsində gənclərlə görüş təşkil edilib



Fevralın 2-də Gənclər Günü münasibətilə Milli Məclisin Gənclər və idman komitəsində ölkəmizdə fəaliyyət göstərən gənclər təşkilatlarının nümayəndələri və bir qrup fəal gənclə görüş keçirilib.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, xüsusi karantin rejiminin tələbləri gözlənilməklə baş tutan görüşün iştirakçılarını salamlayan Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyev Azərbaycanda gənclər siyasətinin Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu, Ümummilli Liderin bu sahəni daim diqqət mərkəzində saxladığını deyib. Qeyd edilib ki, Azərbaycan dünyada gənclər forumu keçirən ilk ölkələrdən biridir. İlk dəfə 1996-cı il fevralın 2-də keçirilən Azərbaycan Gənclərinin I Forumundan artıq 25 il ötür.

Milli Məclis sədrinin müavini vurğulayıb ki, hazırda dövlət başçısı İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilən gənclər siyasətinin əsas xəttini gənclərin ölkənin ictimai-siyasi həyatında yaxından iştirakı təşkil edir. Qeyd olunub ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən aparılan 44 günlük Vətən müharibəsində gənclərimiz ağlasığmaz şücaətlər göstərib, bu şərəf savaşında istər ön, istərsə də arxa cəbhələrdə ləyaqətlə vuruşublar. Hərbidə olan gənclər ön cəbhədə düşmənin başına od yağdırıb, müqəddəs torpaqlarımızı mənfur yağıların işğalından azad edib, arxa cəbhədəki gənclər isə informasiya sahəsində düşmənə tutarlı cavablar verib, elmi, texniki və tarixi faktlara, araşdırmalara istinad edərək onu susdurublar. Vitse-spiker buna görə bütün Azərbaycan gəncliyinə xüsusi minnətdarlığını ifadə edib, döyüşlərdə şəhid olanlara Allahdan rəhmət, yaralılara tezliklə şəfa tapmalarını diləyib.

Görüşdə iştirak edən Azərbaycan Gənc Müəllimlər Assosiasiyasının üzvü Çinarə Kazımova ölkəmizdə aparılan gənclər siyasətinin prioritet istiqamətlərindən, gənclərimizin ictimai-siyasi həyatda fəal iştirakından söz açıb.

Sonra "Karabakh is Azerbaijan" Platformasının İdarə heyətinin üzvü Şəbnəm Səfərova, "İrəli" İctimai Birliyinin sədri, Vətən müharibəsi iştirakçısı Şahin Rəhmanlı gənclərimizin Qarabağın işğaldan azad edilməsi uğrunda gedən döyüşlər zamanı ön və arxa cəbhələrdəki xidmətlərindən danışıblar.

Görüşdə iştirak edən Diaspor ilə İş üzrə Dövlət Komitəsinin əməkdaşı, "Karabakh is Azerbaijan!" Milli Platformasının koordinatoru Bəxtiyar Rəhimov həmin günlərdə xarici ölkələrdə yaşayan azərbaycanlı gənclərin tarixi həqiqətlərin və müharibə faktlarının dünya ictimaiyyətinə çatdırılmasındakı rolunu diqqətə çatdırıb.

Görüşdə gəncləri narahat edən məsələlər müzakirə edilib, iştirakçıların qanunvericiliklə bağlı təklifləri dinlənilib. Parlamentin gənclər təşkilatları ilə qarşılıqlı əməkdaşlığının intensivləşdirilməsinin zəruriliyi vurğulanıb.

Toplantıda həm çıxışçılar, həm də həmin günlərdə ermənilərə qarşı informasiya müharibəsində virtual sahədə fəal mübarizə aparan, 200 nömrəli məktəbin 11-ci sinif şagirdi Sofiya Məmmədova və vaxtaşırı olaraq Vikipediyada tutarlı faktlara əsaslanan materiallarla çıxış edən Ayxan Zayıdzadə parlamentin gənclər və idman komitəsinin "Fəxri fərman"ı ilə təltif ediliblər.

# Milli Məclis ilə Avropa Parlamenti arasında videoformatda görüş keçirilib

Milli Məclis ilə Avropa Parlamenti arasında videoformatda görüş keçirilib. AZƏRTAC xəbər verir ki, görüşdə Avropa İttifaqı-Azərbaycan Parlament Əməkdaşlıq Komitəsinin həmsədrləri Cavanşir Feyziyev və Marina Kalyurand bölgəmizdəki son durumu müzakirə ediblər.

Cavanşir Feyziyev Azərbaycan, Rusiya və Ermənistan arasında dövlət başçıları səviyyəsində keçirilən 11 yanvar görüşündə qəbul olunmuş qərarları xatırladıb. Bu günlərdə hər üç ölkənin baş nazir müavinləri səviyyəsində yaradılmış formatda keçirilən ilk görüşdə bölgədə nəqliyyat kommunikasiyalarının bərpası haqqında fikir mübadiləsi aparıldığı diqqətə çatdırılıb. Deputat işğaldan azad olunmuş ərazilərdə Azərbaycan hökuməti tərəfindən aparılan quruculuq işləri haqqında ətraflı məlumat verib. O, həmçinin işğal altında qalmış ərazilərdə bütün infrastruktur və yaşayış binalarının, o cümlədən Azərbaycan tarixinə aid maddi-mədəni abidələrin dağıdıldığını qeyd edib, xüsusilə məscidlərin və digər dini abidələrin yer üzündən silinməsi və muzeylərin qarət olunması haqqında avropalı həmkarını məlumatlandırıb.

Postmünaqişə dövrünün tənzimlənməsi ilə bağlı sual ətrafında müzakirələr zamanı Milli Məclisin deputatı bu günlərdə Türkiyə-Rusiya Birgə Monitorinq Mərkəzinin fəaliyyətə başladığını diqqətə çatdırıb. O bildirib ki, bölgədəki nəqliyyat-kommunikasiya xətlərinin qarşılıqlı surətdə açılması Azərbaycan-Ermənistan münasibətlərinin də praqmatik gündəlik əsasında formalaşacağına zəmin yaradacaq və daha geniş miqyasda regional əməkdaşlığı stimullaşdıracaq. Avropa Parlamenti təmsilçisinin ermənilərin tez-tez qaldırdığı "hərbi əsirlər" məsələsinə münasibət bildirən Cavanşir Feyziyev deyib ki, bu məsələ Ermənistan təmsilçiləri tərəfindən dünya birliyinə və o cümlədən beynəlxalq mediaya düzgün təqdim olunmur. Məsələnin mahiyyəti ondan ibarətdir ki, noyabrın sonu-dekabrın əvvəllərində əsir götürülmüş erməni hərbçilərinin hüquqi statusu müharibə əsirləri statusundan fərqlidir.

Deputat bildirib ki, 2020-ci il noyabrın 10-da tərəflər arasında atəşkəs haqqında bəyanat imzalandıqdan sonra həmin bəyanatın müvafiq bəndinə uyğun olaraq bütün müharibə əsirləri qarşılıqlı surətdə geri qaytarılıb. Hazırda Azərbaycanda həbsdə saxlanan hərbçilər isə atəşkəs rejiminin qüvvədə olduğu dövrdə beynəlxalq qanunlara zidd olaraq Ermənistan tərəfindən Azərbaycan ərazisinə terror aktları və diversiyalar təşkil etmək məqsədilə göndərilib. Digər tərəfdən, həbsdə olan erməni hərbçiləri arasında 90-cı illərdə Azərbaycan ərazisində xüsusilə ağır cinayətlər törətmiş şəxslər də var ki, onlar törətdikləri cinayət əməllərinə görə məsuliyyət daşıyırlar və hərbi əsirlər hesab oluna bilməzlər. Deputatın səsləndirdiyi fikirlərlə razılaşdığını bildirən xanım Marina Kalyurand hökumətlərarası kontakt qruplarında bu məsələlərə aydınlıq gətiriləcəyinə əmin olduğunu bildirib.

Tərəflər Milli Məclislə Avropa Parlamenti arasında əlaqələrin pandemiya dövrünün tələblərinə uyğun şəkildə davam etdirilməsi və növbəti görüşün gələn ay ərzində daha geniş tərkibdə keçirilməsi haqqında razılaşıblar.

# Mədəniyyət Nazirliyinin 2021-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş kollegiya iclası keçirilib

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 2020-ci ilin yekunlarına və 2021-ci ildə qarşıda duran vəzifələrə həsr olunmuş videokonfrans formatında kollegiya iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, mədəniyyət naziri Anar Kərimov iclası açaraq kollegiya üzvlərini salamlayıb, ötən ilin mədəniyyət mənzərəsinə nəzər salıb. İl ərzində Mədəniyyət Nazirliyi tərəfindən xüsusi karantin rejiminin tələblərinə uyğun olaraq həyata keçirilən layihələrin pandemiya şəraitində insanların asudə vaxtının səmərəli təşkilinə töhfə olmaqla yanaşı, yaradıcı şəxslər üçün əlavə stimul olduğunu vurğulayıb.

Ötən il eyni zamanda Azərbaycanın tarixinə şanlı Qələbə ilə yazıldığını bildirən nazir Azərbaycanın haqq işinin dünyaya çatdırılmasında Mədəniyyət Nazirliyinin də səylərini əsirgəmədiyini, müharibənin gedişində və ondan sonrakı mərhələdə müxtəlif beynəlxalq təşkilatlara və onlarla ölkəyə edilən müraciətlərin, yayılan bəyanatların, reallaşdırılan layihələrin Ermənistanın Azərbaycan mədəniyyətinə qarşı həyata keçirdiyi vandalizm siyasətinin daha böyük miqyasda nümayişinə mühüm töhfə verdiyini diqqətə çatdırıb.

Anar Kərimov "Mədəniyyət Nazirliyinin institusional islahatlarının icrasına dəstək Proqramı"nın hazırlandığını, proqramın strateji istiqamətlərinin mədəniyyət və irsin tədqiqi, qorunması və inkişafı, insan və cəmiyyətin inkişafı, həmçinin mədəniyyətimizin beynəlxalq aləmdə qorunması və təbliğini əhatə etdiyini diqqətə çatdırıb.

Qeyd edib ki, islahatların əsas məqsədi nazirlik sistemində hüquqi bazanın təkmilləşdirilməsi, şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması, müasir infrastrukturun qurulması, insan kapitalının inkişafı, məzmunun zənginləşdirilməsi, dayanıqlı maliyyələşmə və modellərin qurulmasından ibarətdir.

İclasda 2021-ci ilin birinci yarımili üçün nazirliyin tədbirlər planı müzakirə edilib. Konkret hədəflər müəyyən edilərək hazırlanan planda nazirlik sistemində həyata keçiriləcək islahatlar, mədəniyyət və yaradıcılığın inkişafı, məzmununun zənginləşdirilməsi, yaradıcı və mədəniyyət sənayelərinin inkişafı, mədəniyyətin Qarabağa qaytarılması, işğaldan azad edilmiş ərazilərin mədəni irsinin və infrastrukturunun bərpası, "Nizami Gəncəvi ili" ilə əlaqədar tədbir və layihələr, Azərbaycan mədəniyyətinin ölkəmizdə və dünyada təbliği, beynəlxalq əməkdaşlığın inkişafı məsələlərinə diqqət yetiriləcəyi bildirilib.

Ölkə başçısı tərəfindən Şuşa şəhərinin "Azərbaycan mədəniyyətinin paytaxtı" elan olunması ilə əlaqədar tədbirlərin təşkili, Vaqif Poeziya Günləri və "Xarı bülbül" Beynəlxalq Musiqi Festivalının keçirilməsi, həmçinin işğaldan azad olunan ərazilərdə mədəniyyətin mövcud vəziyyəti və Ermənistan tərəfindən törədilən vəhşiliklər barədə məlumatların dünya ictimaiyyətinə çatdırılması istiqamətində tədbirlərin həyata keçirilməsinin vacibliyi qeyd olunub.

Eyni zamanda, ölkə başçısının fərmanı ilə yaradılan Dövlət Nəzarəti İnformasiya Sisteminin əhəmiyyəti vurğulanıb, nazirlik üzrə Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarının, dövlət proqramlarının icrası ilə əlaqədar proseslərin bu sistemin meyarlarına uyğun qurulmasının vacibliyi diqqətə çatdırılıb.

İclasda kollegiyanın üzvləri və nazirliyin digər struktur bölmə rəhbərləri çıxış edərək tədbirlər planı ilə bağlı təkliflərini səsləndiriblər.

Daha sonra Mədəniyyət Nazirliyinin 2021-ci ilin birinci yarımili üçün tədbirlər planı təsdiq edilib.

Kollegiya iclasına yekun vuran Anar Kərimov qarşıya qoyulmuş vəzifələrin reallaşmasında bütün kollektivə uğurlar arzulayıb.

# İlham Əliyev sərkərdə qətiyyəti və siyasi müdrikliklə torpaqlarımızı azad etdi

2020-ci il dünyada pandemiya dövrü oldu. Bütün ölkələrin iqtisadiyyatında geriləmə baş verdi. Azərbaycanda da pandemiya müəyyən iqtisadi çətinliklərə yol açsa da, digər dövlətlərdən fərqli olaraq iqtisadiyyatda ciddi böhran baş vermədi. Lakin xalqımız üçün ötən ilin ən böyük hadisəsi torpaqlarımızın işğaldan azad edilməsi oldu. 44 günlük Vətən müharibəsində İlham Əliyevin Ali Baş Komandanlığı ilə Müzəffər Ordumuz respublikamızın ərazi bütövlüyünü bərpa etdi.

Bu barədə qəzetimizə danışan Azərbaycan Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, professor Eldar Quliyevin sözlərinə görə, xalqımız qələbəni 30 ilə yaxın idi gözləyirdi: "Deputat kimi mütəmadi olaraq seçicilərlə, vətəndaşlarla görüşürük. Bütün görüşlərdə seçicilər onları maraqlandıran məsələləri diqqətə çatdırmaqla yanaşı, Dağlıq Qarabağ probleminə də toxunurdular. Torpaqlarımızın istənilən yolla azad edilməsi hər bir azərbaycanlının arzusu idi. Dost dövlətlər, türkdilli xalqlar da Azərbaycan torpaqlarının işğaldan azad edilməsini gözləyirdilər. Məsələn, Türkiyədən olan nümayəndə heyətləri ilə görüşlər zamanı əsas müzakirə mövzusu Dağlıq Qarabağ məsələsi olurdu. Onlar da problemin həllində beynəlxalq təşkilatların yanaşmalarını düzgün saymırdılar. ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə aparılan danışıqlar həmsədrlərin probleme qeyri-obyektiv yanaşmasına görə nəticəsiz idi. Hər dəfə onların rəhbərləri dəyişirdi, gəlirdilər, gedirdilər, amma probemin həllində irəliyə doğru bir addım da atılmırdı. Onu da qeyd edim ki, həmsədr dövlətlərin hər birində çox sayda erməni yaşayır. Onlar əllərində olan maliyyə-iqtisadi rıçaqlarla həmin ölkələrin siyasi dairələrinə də təsir göstərirdilər. Məsələn, Fransada parlament seçkilərində erməni diasporu bir sıra senatorların seçki kampaniyasını maliyyələşdirir".

Eldar Quliyev qeyd etdi ki, Azərbaycan Dağlıq Qarabağ probleminin sülh yolu ilə həllinə tərəfdar olub: "Prezident İlham Əliyevin danışıqlar prosesində ortaya qoyduğu mövqe beynəlxalq hüququn norma və prinsiplərinə uyğun idi. Eyni zamanda İlham Əliyev hər zaman bəyan edirdi ki, Azərbaycan torpaqlarında ikinci erməni dövləti qurula bilməz. Ermənistan isə problemin həlli ilə bağlı bütün variantlara qeyri-konstruktiv yanaşırdı. Bu ölkədə hakimiyyət dəyişiklikləri olsa da, işğal siyasətinə son qoyulmaması problemin həllinə imkan vermədi. Məlum olduğu kimi, Xocalıda azərbaycanlılara qarşı soyqırımı həyata keçirənlərdən biri olan R.Koçaryan sülh danışıqlarının qarşısını almaq üçün hakimiyyət çevrilişi etmişdi. Ondan sonra hakimiyyətə gələn S.Sarkisyan da müharibə cinayətkarı idi. Onun prezident olduğu 2016-cı ildə 4 günlük Aprel döyüşlərində Azərbaycan Ermənistanı məğlubiyyətə uğradaraq torpaqlarımızın bir hissəsini işğaldan azad etmişdi. Həmin vaxt Minsk qrupunun həmsədrləri status-kvonun dəyişdirilməsinin vacibliyini bəyan etmişdilər. Lakin sonradan həm Ermənistanın, həm də vasitəçilərin mövqeyi dəyişdi və danışıqlarda nəticə əldə olunmadı.

Paşinyan isə bir az da qabağa gedərək sərsəmlədi. Onun müdafiə naziri təyin etdiyi D.Tonoyan demişdi ki, yeni müharibə Azərbaycan ərazilərinin işğalı ilə nəticələnəcək. Şuşada qondarma rejimin rəhbərinin andiçmə mərasiminin keçirilməsi, separatçı parlamentin Şuşaya köçürülməsi planı göstərirdi ki, Ermənistan danışıqlarda maraqlı deyil. Hətta işğal olunmuş şəhər və kəndlərimizə eybəcər erməni adlarının verilməsi də göstərirdi ki, ermənilər işğal etdiyi rayonları azad etmək istəmir".

Ötən ilin iyul ayında dövlət sərhədinin Tovuz rayonu istiqamətində baş verənlər, avqust ayında Goranboyda düşmənin diversiya dəstəsinin ələ keçirilməsi təsdiq etdi ki, N.Paşinyan işğal siyasətini davam etdirir. "Sentyabrın 27-də cəbhə xəttində Ermənistanın törətdiyi növbəti təxribat isə Azərbaycanın səbr kasasını daşdırdı və Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz əks-hücum əməliyyatlarına başlayaraq torpaqlarımızı azad etməyə başladı. Cəmi 44 gün ərzində düşmən darmadağın edildi. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonları, Xocavənd, Xocalı və Tərtər rayonunun kəndləri və Qarabağın mirvarisi Şuşa döyüş yolu ilə azad olundu. Kapitulyasiya edən Ermənistan Prezident İlham Əliyevin şərtlərini yerinə yetirməyə məcbur edildi, ordumuz güllə atmadan Ağdam, Kəlbəcər və Laçına daxil oldu".

Prezident İlham Əliyev müharibə günlərində bütün beynəlxalq təzyiqlərə əzmlə sinə gərdi. Bundan sonra BMT-də Azərbaycana qarşı qətnamənin qəbul olunmasına cəhd göstərildi. Bu barədə fikirlərini bildirən Eldar Quliyev dedi ki, Fransanın Prezidenti Makron ölkəsinin vasitəçi statusunu unudaraq ermənilərin təəssübkeşinə çevrildi. Onun bu mövqeyi seçkilərdə ermənilərin dəstəyini almaq üçün idi və bu bir daha göstərdi ki, Fransa siyasətində şəxsi maraqlar dövlət maraqlarından üstündür. Amma İlham Əliyev bütün təzyiqlərin qarşısını lider qətiyyəti ilə aldı, öz xilaskarlıq missiyasını inamla davam etdirdi. Ona görə hörmətli Prezidentimiz 44 gün ərzində Ermənistanı diz üstə çökdürməklə onun havadarlarına, erməni diasporuna, dünya ermənilərinə zərbə vurdu.

Təzyiqlərdən biri guya Azərbaycan tərəfdə xarici muzdluların döyüşməsi ilə bağlı idi. Amma ortaya heç bir fakt qoya bilmədilər. Hətta Fransa Prezidenti bu iddia ilə çıxış etsə də, sübut göstərə bilmədi. Ermənistan isə bir çox ölkələrdən muzdlu döyüşçüləri cəlb etmişdi. Hətta Fransadan olan muzdlular sonradan qayıdıb verdikləri müsahibədə Azərbaycan əsgərinin necə döyüşməsindən, yaralansa belə ölümdən qorxmayaraq hücum etməsindən danışmışdılar. Bəli, Azərbaycan Ordusu güclü olduğu qədər onun zabit və əsgərləri də qorxmaz və cəsarətli idilər. Onların hünərinin, döyüş əzminin qarşısında hətta ən hazırlıqlı erməni əsgəri belə duruş gətirə bilməzdi.

Əlbəttə, Azərbaycana beynəlxalq dəstək də var idi. Bu barədə danışan Eldar Quliyev ilk növbədə Türkiyənin birmənalı dəstəyini qeyd etdi: "Atatürkdən sonra Türkiyə tarixinin ən güclü lideri olan Rəcəb Tayyib Ərdoğan Azərbaycanın haqq işini inamla müdafiə etdi. Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu, müdafiə naziri Hulusi Akar Azərbaycanın yanında oldular, bir neçə dəfə Bakıya səfər etdilər. Eyni zamanda dost Pakistanın rəhbərliyi Azərbaycana dəstəyini ifadə edərək bildirdi ki, lazım olarsa hərbçilərini də kömək üçün göndərməyə hazırdır. Əfqanıstan da 44 günlük müharibədə Azərbaycana siyasi dəstəyini ifadə etdi. Qonşu İran və Gürcüstan da bu müharibədə Azərbaycanla münasibətlərə sadiq qaldılar. Bunlarla yanaşı, İsrail dövlətinin prinsipial mövqeyini də qeyd etməliyik. Azərbaycanın əsas siyasi-iqtisadi tərəfdaşlarından olan İsrailin siyasi rəhbərliyi 44 günlük müharibədə də respublikamızın mövqeyini müdafiə etdi".

Oktyabr ayında BMT Təhlükəsizlik Şurasının iclasından sonra Fransanın təşəbbüsü ilə Minsk qrupunun həmsədr ölkələri tərəfindən bəyanat layihəsi hazırlanmış və razılaşdırılması üçün üzv ölkələr arasında yayılmışdı. Lakin layihədə BMT-nin 1993-cü ildə qəbul etdiyi qətnamələrə istinad edilməmişdi. Eldar Quliyev dedi ki Qoşulmama Hərəkatına üzv olan ölkələr sərt etiraz edərək bəyanatın qəbul edilməsinin qarşısını aldılar: "Beləliklə, Qoşulmama Hərəkatı çərçivəsində uğurlu siyasi-diplomatik fəaliyyət göstərən İlham Əliyev uzaqgörənliyi ilə BMT səviyyəsində də ölkəmizə qarşı beynəlxalq təzyiqin qarşısını aldı. Bu hadisə Azərbaycanın haqlı mövqeyinin Qoşulmama Hərəkatı tərəfindən də müdafiə edilməsi idi".

Eldar Quliyev qeyd etdi ki, Prezident İlham Əliyev müharibə günlərində 30-a yaxın xarici KİV-ə müsahibə verərək Azərbaycanın haqq səsini dünya ictimaiyyətinə çatdırdı. Hamımız gördük ki, onların bir qismi erməni diasporundan tapşırıq alaraq təxribatçı suallar verirdilər. Amma cənab İlham Əliyev onları təmkinlə cavablandırdı, qətiyyətlə Azərbaycanın haqlı mövqeyini əsaslandırdı. Prezident təxribatçı suallara elə cavablar verdi ki, jurnalistin mövzunu dəyişməkdən başqa yolu qalmadı, hətta amerikalı jurnalist İlham Əliyevin hazırlıqlı siyasətçi olduğunu etiraf etdi.

Bu müharibədə xalqımız milli həmrəylik nümayiş etdirdi, Prezidentin ətrafında səfərbər oldu. Bu barədə danışan Eldar Quliyevin sözlərinə görə, xalqımız heç vaxt bu müharibədə olduğu kimi vətənpərvərlik nümunəsi göstərməmişdi. Heydər Əliyevin çox gözəl sözü var: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Bu müharibədə bir daha azərbaycanlı olmağımızla fəxr etdik, qürur duyduq. Xalqımız həmrəylik nümayiş etdirdi, Prezident İlham Əliyevin ətrafında yumruq kimi birləşdi və bu yumruqla düşmənin başı əzildi. Müharibə günlərində xalqımız hər gün səbirsizliklə İlham Əliyevin müraciətini gözləyir və ya "Twitter" hesabını izləyirdi. Çünki hamı bilirdi ki, Prezident bununla yeni qələbə müjdəsini insanlara çatdıracaq.



Müharibə itkisiz olmur. Eldar Quliyev dedi ki, 44 günlük Vətən müharibəsində oğullarımız ölümün gözünə dik baxdılar, şəhid oldular. Lakin şəhidlərimizin qanı yerdə qalmadı, hər birinin qisası döyüş meydanlarında artıqlaması ilə alındı. Bir neçə gün əvvəl 20 Yanvar faciəsinin 31-ci ildönümü tamam oldu. Bu dəfə xalqımız Şəhidlər xiyabanını vüqarla ziyarət etdi. Çünki bu dəfə biz müharibədə qalib gəlmiş xalq olaraq şəhidlərimizi ziyarət edirdik. Onların ruhu indi rahatdır, şaddır. Çünki qanları yerdə qalmadı, uğrunda canlarından keçdikləri müqəddəs ideallar həyata vəsiqə aldı.

Ermənistanın itkiləri isə elan etdikləri rəsmi rəqəmlərdən qat-qat çoxdur. Çünki sıravi ermənilərin özləri də deyirlər ki, itkilərin sayı gizlədilir, düzgün hesablanmır. Hətta Ermənistanın aidiyyəti qurumları erməni əsgərlərinin cəsədlərinə yaxın durub aparmaq istəmirdilər. Çünki həm itkilərinin sayını gizlədirdilər, həm də əsgər valideynlərindən qorxurdular.

44 günlük müharibədə qazanılan Qələbə həm də xalqımızı bütün dünyada məğrur kimi göstərdi: "Milli Məclisin deputatı kimi beynəlxalq tədbirlərdə iştirak edirik. İndiyədək torpaqlarımızın işğal altında olduğunu deyirdik. Bundan sonra isə qalib dövlətin, Ermənistanı döyüşdə məğlub etmiş xalqın nümayəndəsi kimi həmin tədbirlərdə iştirak edəcəyik. Səbirsizliklə pandemiyanın bitməsini gözləyirik ki, beynəlxalq tədbirlərə qalib kimi yollanaq, torpaqlarımızı işğaldan azad etdiyimizi bəyan edək", - deyə Eldar Quliyev vurğuladı.

Torpaqlarımızın işğaldan azad olunmasından sonra həm də bütün dünya erməni işğalçılarının vandallığını, barbarlığını gördü. Eldar Quliyev dedi ki, hətta bayrağımızı asmaq üçün Füzulidə bir dirək belə tapılmadı. Erməni vandalları Kəlbəcəri tərk edərkən evlərə, meşələrə od vurdular. Əslində unitaz daşıyan bir xalqın nümayəndələrindən bundan artıq nə gözləmək olardı. Əlbəttə, bütün zərərlərin hamısının qiymətləndirilməsi aparılacaq və beynəlxalq məhkəmələrdə Ermənistana qarşı təzminat davası açılacaq.

Eldar Quliyev bir məsələni də diqqətə çatdıraraq dedi ki, ermənilər onilliklər boyu Azərbaycan torpaqlarını işğal etməyə çalışıblar. Hətta sovet hakimiyyəti illərində Ermənistana rəhbərlik edənlər Qarabağın bu respublikaya birləşdirilməsinə nail olmaq istəyirdilər. Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ermənilərin bütün iddialarının qarşısı alınmışdı. Ulu Öndərin Dağlıq Qarabağda gördüyü işlər, o cümlədən Şuşada həyata keçirilən layihələr bu torpağı Azərbaycanın tarixi ərazisi kimi dünyada tanıtmışdı. Təəssüf ki, sonrakı dövrdə Azərbaycana rəhbərlik edənlər ermənilərin əsassız torpaq iddialarına qarşı qətiyyətli mövqe ortaya qoymadılar. Onların respublikaya rəhbərliyi dövründə Qazaxda kəndlər Ermənistana verildi, Qarabağda separatçılıq baş qaldırdı, 20 Yanvar qırğını törədildi. Bu gün isə Azərbaycan güclü dövlətdir. Ulu Öndər Heydər Əliyevin əsasını qoyduğu, İlham Əliyevin davam etdirdiyi siyasət Azərbaycana tarixinin ən qüdrətli dövrünü yaşadır. Torpaqlarımızın azad edilməsi göstərdi ki, Ermənistan Azərbaycanla müharibədə məğlubiyyətə məhkumdur.

Eldar Quliyev müharibə günlərində Azərbaycan Ağsaqqallar Şurasının fəaliyyətindən də söz açdı. Bildirdi ki, Ağsaqqallar Şurasının üzvləri müharibə günlərində fəallıq göstərərək əsgərlərimizin yanında oldular, dövlətimizin siyasi kursuna dəstək verdilər. Ağsaqqallar Şurasının sentyabrın 29-da keçirilən növbədənkənar VIII qurultayında Prezident İlham Əliyevə müraciət qəbul olunub. Oktyabr ayında şura Ermənistanın son hərbi təxribatları ilə bağlı bəyanat yayıb. Həmin ay Eldar Quliyev həmin qurumun 21 min 500 üzvü adından beynəlxalq və regional təşkilatlara, ayrı-ayrı dövlətlərə müraciət ünvanlayıb. Bu müraciətə bir sıra ölkələrdən dəstək cavabı gəlib. Noyabr ayında Prezident İlham Əliyevə müraciət edən Azərbaycan Ağsaqqallar Şurası böyük Qələbə münasibətilə dövlət başçısını təbrik edib, xalqımıza yaşatdığı sevinci günlərə görə dərin minnətdarlığını bildirib. Azərbaycan Ağsaqqallar Şurası ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizə aparan rəşadətli Ordumuza dəstək olmaq üçün Silahlı Qüvvələrə Yardım Fonduna 60 min manat vəsait də köçürüb.

Müharibə günlərində xalqımızın həmrəyliyini göstərən başqa bir məqam 51 siyasi partiyanın ətrafında monolit qüvvə kimi birləşməsi oldu. Eldar Quliyev dedi ki, siyasi partiyaların birgə bəyanatları xalqımızın haqlı mövqeyinin dünya ictimaiyyətinə çatdırılmasında böyük rol oynadı. Lakin müharibə bitdikdən sonra adını müxalifətçi qoyan bəziləri qələbəmizə kölgə salmaqla məşğuldurlar. AXCP sədri Əli Kərimli və milli şura adlı qurumda cəmləşənlər həmişə deyirdilər ki, niyə İlham Əliyev müharibə edib torpaqlarımızı azad etmir? 44 gün ərzində İlham Əliyev torpaqları azad etdi, bəs indi nə istəyirsiz? Torpaqlarımızın vaxtilə işğal edilməsi AXC-Müsavat cütlüyünün yürütdüyü səbatsız siyasətin nəticəsi idi. Prezident İlham Əliyev onların xəyanəti nəticəsində işğal olunmuş torpaqları geri aldı. Onlar hələ bir dəfə də olsun erməni işğalçılarının torpaqlarımızda törətdiyi vandallıqlar, məscidlərimizi murdarlamaları barədə bəyanat verməyiblər. Amma qələbəmizə kölgə salmağa cəhd göstərirlər ki, bu da onların qərəzli olduqlarını, düşmən dəyirmanına su tökdüklərini göstərir.

Son 200 ildə torpaqlarımızın bir hissəsini itirmişik. İndiki Ermənistanın ərazisi də tarixi Azərbaycan torpaqlarıdır. Bununla bağlı danışan Eldar Quliyev dedi ki, 44 günlük müharibədə Azərbaycan ilk dəfə olaraq öz tarixi ərazilərini işğaldan azad etdi. Prezident İlham Əliyev sərkərdə qətiyyəti və siyasi müdrikliklə Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi.

*Ona görə İlham Əliyev bütün Azərbaycan tarixinin ən görkəmli sərkərdələri ilə bir sırada dayanır. Bu gün ermənilər özləri də etiraf edirlər ki, İlham Əliyevə qalib gəlmək mümkün deyil, çünki o, Heydər Əliyevin oğludur. Yüz illər bundan sonra gələn nəsillər də Prezident İlham Əliyevin qəhrəmanlıq missiyasını xatırlayaraq fəxr edəcəklər.*

***Söhbəti yazdı: Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Vətən savaşının sınanmış dostu

## Azərbaycanın Pakistanla strateji müttəfiqliyi Avrasiyada yeni güc mərkəzini formalaşdırır

*Əvvəli 1-ci səh.*

Beynəlxalq platformalar çərçivəsində sıx əməkdaşlıq da iki ölkə arasında siyasi əlaqələrin yüksək səviyyəsini əks etdirir. Pakistan və Azərbaycan beynəlxalq təşkilatlarda fəaliyyətlərini daim əlaqələndirirlər, bir-birlərinə güclü dəstək verirlər və ortaq mövqedən çıxış edirlər. Tərkibində 120 dövləti birləşdirən Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq buna bariz nümunədir. Qoşulmama Hərəkatının Bakıda keçirilən sammiti çərçivəsində 26 oktyabr 2019-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Pakistan İslam Respublikasının Prezidenti Arif Alvi ilə görüşü baş tutub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həmçinin 2020-ci il yanvarın 21-də Davosda Pakistan İslam Respublikasının Baş naziri İmran Xan ilə görüşü olub. Görüşdə Azərbaycan ilə Pakistan arasında ikitərəfli əməkdaşlıq məsələləri müzakirə edilib. Bütün bunlar Azərbaycanla Pakistan arasında siyasi dialoqun kifayət qədər intensiv xarakter daşıdığını nümayiş etdirir.

Azərbaycanla Pakistan arasında siyasi münasibətlər həmçinin xarici işlər nazirlikləri, digər qurumlar, eləcə də parlamentlər səviyyəsində də davam etdirilir. İkitərəfli parlamentlərarası əlaqələrin inkişafı məqsədilə Azərbaycan-Pakistan parlamentlərarası əlaqələr üzrə işçi qrupu və Pakistan-Azərbaycan parlamentlərarası əlaqələr üzrə dostluq qrupları yaradılıb. 2018-ci ilin sentyabr ayında Pakistan Senatının sədri ölkəmizin müstəqilliyinin 100 illik yubileyi ilə bağlı tədbirlərdə iştirak etmək üçün Azərbaycanda səfərdə olub. Cari ilin sentyabrında Azərbaycan Respublikasının Milli Məclisinin sədri ilə Pakistan İslam Respublikası Senatının sədri arasında videokonfrans formatında görüş keçirilib.

Azərbaycan-Pakistan münasibətlərində qarşıya qoyulan əsas hədəflərdən biri mənəvi-dini identikliyə malik xalqlarımızın daha da yaxınlaşdırılmasıdır. O cümlədən humanitar sahə Azərbaycan-Pakistan əlaqələrində xüsusi yer tutur. Tarixdən gələn ənənələr bu gün də davam etdirilir. Azərbaycanın Heydər Əliyev Fondu Pakistanla humanitar əlaqələrin dərinləşməsinə özünün sanballı töhfələrini verir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xəttilə Pakistanın zəlzələdən zərər çəkmiş ərazilərində bir sıra humanitar aksiyalar keçirilib. Onu da vurğulamaq yerinə düşər ki, respublikamızla Pakistan arasında əlaqələrin möhkəmlənməsinə, o cümlədən humanitar əməkdaşlığın dərinləşməsinə verdiyi sanballı töhfələrə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva bu ölkənin yüksək mükafatı - "Hilal-e Pakistan" ordeni ilə təltif olunub.

### İqtisadi sahədə əməkdaşlığın yaxşı perspektivləri var

İki dost ölkə arasında siyasi dialoqun yüksək səviyyəsinə uyğun olaraq iqtisadi sahədə əməkdaşlığın da geniş perspektivləri var. Vurğulamaq yerinə düşər ki, 1995-ci ildə imzalanan protokola əsasən təsis edilən Azərbaycan-Pakistan Birgə Hökumətlərarası Komissiyasının iclasları müntəzəm qaydada keçirilir. 2017-ci ildə Azərbaycandan Pakistana ixrac missiyası göndərilib. Azərbaycanla Pakistan arasında ticarət və kənd təsərrüfatı sahələrində birgə işçi qrupları fəaliyyət göstərir. Ölkələrimiz arasında ticarət dövriyyəsinin getdikcə genişlənməsi məmnunluq doğurur. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi son 2 il ərzində 8 milyondan 32 milyon dollara yüksəlib. Qarşılıqlı investisiya fəallığının artırılmasına hər iki tərəf güclü siyasi iradə göstərir. Həm Pakistanda, həm də Azərbaycanda investorların sərmayələrinin qorunmasına güclü təminat verilir. Hər iki ölkədə investisiya fəallığını artırmaq üçün geniş imkanlar var. Azərbaycan Qvadarda neft emalı müəssisəsi yaratmaq barədə təklif irəli sürüb. Kənd təsərrüfatı sahəsində də əməkdaşlıq imkanları mövcuddur. Eyni zamanda turizm sahəsində də yaxşı perspektivlər var. Yeri gəlmişkən, Davosda Azərbaycan Prezidenti ilə Pakistan İslam Respublikasının Baş naziri arasında keçirilən görüşdə də turizm sahəsində əməkdaşlıq imkanları müzakirə edilib. Azərbaycanda turizmin sürətlə inkişaf etdiyini, xüsusilə müsəlman ölkələrindən gələn ziyarətçilərin sayında böyük artımın müşahidə edildiyini deyən İmran Xan ölkəmizin bu sahədəki təcrübəsindən yararlanmaq niyyətində olduqlarını bildirib. Azərbaycan 2017-ci ilin yanvar ayından etibarən Pakistanı respublikamıza sadələşdirilmiş viza prosedurlarının - onlayn viza sisteminin şamil olunduğu ölkələrin siyahısına daxil edib. Nəticədə Azərbaycana səfər edən pakistanlıların sayında yüksək artım dinamikası müşahidə olunub. Əgər 2016-cı ildə cəmi 3800 pakistanlı Azərbaycana səfər etmişdisə, 2019-cu ildə bu rəqəm 46 minə çatıb.

İki ölkə arasında iqtisadi sahədə əməkdaşlığın genişlənməsində həm Pakistanda, həm də Azərbaycanda keçirilən biznes forumların böyük əhəmiyyəti var. Azərbaycan-Pakistan biznes forumu sonuncu dəfə ötən ilin sentyabr ayında Bakıda keçirilib. Tədbirdə hər iki tərəfdən rəsmi şəxslərlə yanaşı, enerji, sənaye, kənd təsərrüfatı, tikinti, ticarət, əczaçılıq, turizm və s. məhsulların istehsalı sahəsində fəaliyyət göstərən 150-yə yaxın sahibkar iştirak edib. Tədbirdə hər iki ölkənin investisiya cəlbediciliyi ilə bağlı geniş təqdimatlar iştirakçıların diqqətinə çatdırılıb.



### Terrorizmə, islamofobiyaya qarşı qətiyyətli mübarizə

Son illərdə qlobal miqyasda terrorizm, separatizm və islamofobiya ilə bağlı meydana çıxan yeni çağırışların aktuallığı artıb. XX yüzilliyin sonlarında və yeni əsrin əvvəlində müxtəlif sivilizasiyaların harmoniyası sayəsində yüksək inkişaf səviyyəsinə çatan, mühüm uğurlar qazanan bəşəriyyətin, yaxud onun müəyyən bir hissəsinin geridönüşə rəvac verməsi ciddi narahatlıq yaradır. Milli, dini, irqi dözümsüzlük ayrı-ayrı ölkələri, dövlətləri, bütövlükdə dünyanı təhdid edən qlobal problemə çevrilib. Bu gün mürtəce baxışları təbliğ edən, neonasizm meyillərini qabardan, "Sivilizasiyaların toqquşması" fəlsəfəsini beynəlxalq münasibətlər sisteminə transfer etməyə çalışan bəzi hegemon qüvvələrin strateji xəttində islamofobiya və "yeni səlib yürüyüşü" xüsusi yer tutur. Bir çox regionlarda hibrid və asimmetrik müharibə vasitəsilə yaradılan xaos və anarxiya mühiti aşkar reallıq olmaqla yanaşı, yeni humanitar fəlakətlərə zəmin hazırlayır. Xüsusilə də islam coğrafiyasında yerləşən, çoxəsrlik dövlətçilik ənənələrinə malik ölkələr real hədəfə çevriliblər. Bir sözlə, indi islamofobiya bir kabus kimi seçilmiş ölkələrin başı üstünü alaraq onları ən müxtəlif təhdidlərlə hədələməkdədir.

İki qardaş ölkə olan Azərbaycan və Pakistan da terrorun və islamofobiyanın nəticələrini yaşayan ölkələrdir. Pakistan artıq uzun müddətdir ki, Kəşmir problemindən əziyyət çəkir. Dost ölkədə vaxtaşırı terror cinayətləri törədilir. Mərkəzi Avstraliyadakı İqtisadiyyat və Sülh İnstitutunun yaydığı 2020-ci il Qlobal Terrorizm İndeksinə görə, 2019-cu ildə dünyada 13 826 nəfər terrorun qurbanı olub. 163 ölkənin adının yer aldığı siyahıda Pakistan ilk onluqda qərarlaşıb. Qlobal imperializm Pakistanda sabitliyi pozmaq üçün "əl-Qaidə" və "Taliban" terrorçu qruplaşmalarından istifadə edir. Son illər bu ölkədə İŞİD terrorçu qruplaşması da fəallığını artırıb.

Azərbaycana gəldikdə isə işğalçı Ermənistan ötən əsrin doxsanıncı illərinin əvvəllərində ərazimizin 20 faizini işğal etmişdi. İşğalçı ölkənin dövlət siyasətində azərbaycanafobiya və türkofobiya qırmızı xətt kimi keçir. Bu ölkə məhz öz havadarlarının - dünyadakı erməni lobbisinə bağlı olan ayrı-ayrı imperialist və islamofob mərkəzlərin dəstəyi, ikili standartlardan çıxış etmələri sayəsində uzun müddət Azərbaycan ərazilərini işğal altında saxlamağa nail oldu. Ancaq Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllində işğalçı Ermənistana, imperialist mərkəzlərə və islamofob qüvvələrə qarşı sərt müqavimət göstərdi və 44 gün davam edən Vətən müharibəsində düşməni kapitulyasiya aktına imza atmağa məcbur etdi, tam qələbə qazandı, tarixi ədaləti və öz ərazi bütövlüyünü bərpa etdi.

### Üç müttəfiq bölgəyə sülh və inkişaf vəd edir

Son illərdə dünyanın mənzərəsi yeni güc mərkəzlərinin yaranması ilə səciyyələnir. Bu güc mərkəzləri qarşıya qoyduqları məqsədlərə və reallaşdırdıqları fəaliyyətə görə bir-birlərindən fərqlənirlər. Yuxarıda bəhs etdiyimiz imperialist, islamofob mərkəzlər daha çox neqativ geosiyasi amillər vasitəsilə mövcudluqlarını qorumağa və yeni ekspansiyalar həyata keçirməyə çalışırlar.

Türkiyənin, Pakistanın və Azərbaycanın müttəfiqliyi isə hər üç ölkənin, eyni zamanda bəşəriyyətin mənafeyinə xidmət edir. Bütövlükdə bu üç ölkənin son illərdə daha da möhkəmlənən çoxşaxəli əməkdaşlığı Avrasiyada yeni aparıcı güc mərkəzinin formalaşmasını şərtləndirir. Sevindirici haldır ki, təzyiq və təhdid mexanizmləri tətbiq etmək niyyətindən uzaqda dayanan Türkiyə, Pakistan və Azərbaycanın Avrasiya coğrafiyasında formalaşdırdığı yeni güc mərkəzi rəqabətqabiliyyətlidir, inkişafa və qarşılıqlı faydalı əməkdaşlığın əhatə dairəsinin genişlənməsinə, bütövlükdə regional və qlobal tərəqqiyə xidmət edir.

Biz yuxarıda Azərbaycanla Pakistan arasında getdikcə genişlənən siyasi və iqtisadi əlaqələrdən bəhs etdik. Respublikamızın qardaş Türkiyə ilə münasibətləri kifayət qədər yüksək səviyyədədir. İndiyədək Azərbaycan Türkiyə iqtisadiyyatına 18 milyard, Türkiyə isə Azərbaycan iqtisadiyyatına 12,5 milyard dollar sərmayə qoyub. Eyni zamanda qardaş Türkiyənin Pakistanla siyasi və iqtisadi əməkdaşlığının çərçivələri də getdikcə genişlənir. Siyasi əlaqələri yüksək səviyyədə olan iki dost ölkə beynəlxalq təşkilatlarda oxşar mövqedən çıxış edərək bir-birlərini dəstəkləyirlər. Türkiyə ilə Pakistan arasında müdafiə sənayesi sahəsində əməkdaşlıq xüsusilə diqqət çəkir. Beynəlxalq reytinq agentliklərinin dəyərləndirmələrinə görə, Türkiyə və Pakistan istər qoşun növləri, istərsə də ümumilikdə Silahlı Qüvvələrinin imkanlarına görə dünyanın ilk ən güclü on ölkəsi siyahısında yer alırlar. Hər iki ölkə hərbi əməkdaşlıq çərçivəsində məhsulların qarşılıqlı tədarükü, yeni texnologiyaların araşdırılması və inkişaf etdirilməsi sahəsində fəaliyyətlərini uğurla davam etdirir. İki dost ölkə müdafiə sənayesinin ayrı-ayrı istiqamətləri üzrə koordinasiya edilmiş fəaliyyət həyata keçirir.

Ümumiləşdirərək qeyd edə bilərik ki, hər üç dövlətin artan iqtisadi, hərbi potensialı, insan resursları və əlbəttə ki, siyasi iradələri Avrasiyada getdikcə daha çox diqqət çəkən yeni güc mərkəzinin formalaşması reallığını ortaya qoyur.

### Pakistan haqq savaşında haqlının yanında dayandı

"Qarşılıqlı dəstək Azərbaycan-Pakistan əməkdaşlığının qardaşlıq xüsusiyyətini əks etdirir". Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev ötən il sentyabrın 29-da Pakistan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bilal Hayenin etimadnaməsini qəbul edərkən söyləyib.

Şübhəsiz ki, qarşılıqlı etimad və qətiyyətli dəstək iki ölkə arasında münasibətlərin əsaslarını gücləndirən siyasi, mənəvi faktorlardır. Xüsusilə də bu tendensiya hər iki ölkə üçün ümummilli xarakter kəsb edən prinsipial məsələlərdə özünü göstərir. Azərbaycan Kəşmir məsələsində dost Pakistanın yanındadır. Eyni zamanda Pakistan İslam Respublikası Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin suverenliyi, ərazi bütövlüyü və beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığı prinsipləri, müvafiq BMT və İƏT qətnamələri əsasında həllinə daim dəstək ifadə edib. Pakistan İslam Respublikası işğalçı Ermənistanı rəsmən tanımayıb və bu ölkə ilə diplomatik əlaqələr qurmayıb.

Pakistan sentyabrın 27-dən noyabrın 10-dək davam edən və işğalçı Ermənistanın tam kapitulyasiyası ilə başa çatan 44 günlük Vətən müharibəsində də daim Azərbaycanın yanında olub. Vətən müharibəsi dövlətimiz, xalqımız üçün həqiqət anı idi. Bu müddət bir çox reallığın üzərinə növbəti dəfə işıq saldı. Ən mühüm məqamlardan biri budur ki, torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan əks-hücum əməliyyatlarında qardaş Türkiyə və Pakistan Azərbaycanı güclü şəkildə dəstəklədilər. Bu dəstək işğalçı dövlətin rəhbərlərinin və onların havadarlarının iddia etdikləri kimi heç də hərbi xarakter daşımırdı. Bu, sırf siyasi-mənəvi dəstək idi. Arxasında əsl dostlarının dayandığını hiss edən Azərbaycanın özünəinam hissi daha da artdı və ərazi bütövlüyünün təmin olunması uğrunda ədalətli mübarizəsini axıradək qətiyyətlə davam etdirdi. Şübhəsiz ki, Azərbaycan xalqı dost, qardaş və strateji tərəfdaş ölkələr olan Türkiyə və Pakistana bu qətiyyətli mövqeyinə, mənəvi və siyasi cəhətdən prinsipial dəstəyinə görə minnətdardır.

Nəticə etibarilə Azərbaycan ilə Pakistan arasında münasibətlər strateji əhəmiyyətə malik olmaqla yanaşı, nümunəvi xarakter daşıyır. Təbii ki, səmimi və qarşılıqlı etimada əsaslanan dostluq, qardaşlıq münasibətləri fonunda formalaşmış ortaq dəyərlərin, həmçinin fəal dialoq ənənəsinin gənc nəsillərə ötürülməsi və aşılanması məsələsi də xüsusi aktuallığa və əhəmiyyətə malikdir. Hazırkı mərhələdə hər iki ölkə gəncləri arasında sıx təmasların, fikir və təcrübə mübadiləsinin həm Azərbaycanın, həm də Pakistanın müvafiq qurumları tərəfindən təşviq olunması və dəstəklənməsi olduqca vacibdir.

44 günlük Vətən müharibəsi zamanı Pakistanın ölkəmizin haqlı və ədalətli mübarizəsinə birmənalı dəstəyi Azərbaycan cəmiyyətinin bütün təbəqələrinin təmsilçiləri kimi, sosiumun fəal təbəqəsi olan gənclər tərəfindən də xüsusi minnətdarlıqla qarşılandı. Azərbaycan Ordusunun ardıcıl qələbələri münasibətilə öz sevincini qürurla nümayiş etdirən gənclərimiz üçrəngli bayrağımızla yanaşı, Türkiyə və Pakistanın da milli suverenlik rəmzi olan bayraqlarını iftixarla dalğalandırdılar.

*Bu həm mənəvi birlik və həmrəylik rəmzi, həm də qardaşlıq münasibətlərinin təntənəsi idi. Heç şübhəsiz, qarşıdakı dövrdə də gənclərin sıx inteqrasiyası üçün müvafiq addımlar atılmalı, tarixi, siyasi və mədəni əlaqələrin fonunda ortaq dəyərlərin gənc nəslə ötürülməsi ilə mənəvi körpü daha da gücləndirilməlidir.*

***Şahzadə MƏDƏTOVA,***
***Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının müəllimi***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## 2837 şəhidin ailə üzvlərinə pensiya, müavinət və təqaüd təyin olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin postmüharibə dövrü üzrə sosial dəstək tədbirlərindən biri də Vətən müharibəsi şəhidlərinin ailələrinə sosial ödənişlərin təyin olunmasıdır.

Nazirliyin tabeliyindəki Dövlət Sosial Müdafiə Fondu (DSMF) tərəfindən bu günədək artıq 2837 şəhidin 7000-dən çox ailə üzvünə Prezidentin aylıq təqaüdü, pensiya və müavinət təyin edilib. Müharibədən sonra şəhid ailələrinin üzvlərinin sosial təminat hüquqlarının reallaşdırılması işlərinin operativ təşkili üçün DSMF-də xüsusi işçi qrup yaradılıb, əməkdaşlar səfərbər edilib. Şəhid ailələri üzvlərinin müraciəti olmadan və zəruri sənədlər fond tərəfindən aidiyyəti qurumlardan alınaraq toplanılmaqla ödənişlərin elektron qaydada, proaktiv şəkildə təyinatı həyata keçirilib.

Proses artıq başa çatmaqdadır.

## "Coca-Cola" Azərbaycan iqtisadiyyatına yeni investisya yatıracaq

İqtisadiyyat Nazirliyi və "Azərbaycan Coca-Cola Bottlers" MMC arasında Azərbaycanda yeni zavodun tikintisi barədə Anlaşma Memorandumu imzalanıb.

Məlum olduğu kimi, COVID-19 bütün dünyada olduğu kimi, milli iqtisadiyyatı da yeni çağırışlarla üz-üzə qoyub, məcburi məhdudlaşdırmalar iqtisadi fəallığın zəifləməsinə, biznesin maliyyə itkiləri ilə qarşılaşmasına səbəb olub.

Pandemiyanın iqtisadiyyata təsirlərinin minimallaşdırılması üçün qeyri-neft sektorunda iqtisadi fəallığın canlandırılması, iş yerlərinin qorunması, stimullaşdırıcı layihələrin və tədbirlərin həyata keçirilməsi, özəl investisiya qoyuluşunun təşviq edilməsi, tikinti, məşğulluq və digər istiqamətlərdə təkanverici tədbirlərin görülməsi hazırda qarşıda duran əsas hədəflərdəndir.

Bu hədəflərə nail olunması istiqamətində digər tədbirlərlə yanaşı, İqtisadiyyat Nazirliyinin dəstəyi ilə bir sıra layihələr həyata keçirilir. Belə layihələrdən biri də "Azərbaycan Coca-Cola Bottlers" MMC-nin yeni spirtsiz içkilər istehsalı müəssisəsinin yaradılması layihəsidir. Belə ki, Azərbaycanın investisiya mühitinin, iqtisadiyyatın dayanıqlığının, həmçinin iqtisadiyyata dəstək proqramlarının, biznesin qısa və orta müddətdə dəstəklənməsini əhatə edən mühüm sənədlərin qəbul edilməsinin nəticəsi olaraq, "Azərbaycan Coca-Cola Bottlers" MMC ölkəmizdə fəaliyyətinin genişləndirilməsini və yeni istehsal sahələrinin yaradılmasını planlaşdırır.

30 milyon ABŞ dollarından çox sərmayə qoyuluşunu nəzərdə tutan investisiya planına əsasən, "Azərbaycan Coca-Cola Bottlers" MMC İsmayıllı, Oğuz və ya Qəbələ rayonlarının birində beynəlxalq keyfiyyət və təhlükəsizlik standartlarına cavab verən yeni istehsal zavodu quracaq.

Müəssisədə 100-ə yaxın yeni iş yerinin açılması nəzərdə tutulur ki, bu da bölgədə məşğulluğun daha da artmasına töhfə verəcək.



## «Şahdəniz» həm qazı, həm də kondensatı ilə gəlir gətirir

Azərbaycan Respublikası Dövlət Neft Fondunun (ARDNF) məlumatına görə, 2020-ci il ərzində "Şahdəniz" yatağından hasil olunan qaz və kondensatdan 293,9 milyon ABŞ dolları həcmində gəlir əldə edilib.

"Şahdəniz Alfa" platforması 15 ilə yaxındır fəaliyyət göstərərək yatağın işlənməsinin birinci mərhələsi çərçivəsində hasilatı həyata keçirir. "Şahdəniz Bravo" isə layihənin ikinci mərhələsi çərçivəsində 2018-ci ildə işə salınıb. Bu platformaları "Şahdəniz"in qoşa qanadı da adlandırırlar.

"Şahdəniz" qazı 2006-cı ildən Azərbaycana və Cənubi Qafqaz Boru Kəməri (CQBK) ilə Gürcüstana çatdırılır. Gürcüstan-Türkiyə sərhədində CQBK-ya qoşulan xətt 2007-ci ildən mavi yanacağı Ərzurumadək daşıyır. "Şahdəniz-1" qazını Səngəçaldan Ərzuruma qədər nəql edən bu xətt bütövlükdə Bakı-Tbilisi-Ərzurum kəməri adlanır.

"Şahdəniz-2" isə Azərbaycandan Avropaya uzanan 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyidir. 2021-ci il ərəfəsində Trans-Adriatik Qaz Boru Kəmərinin (TAP) istifadəyə verilməsi ilə dəhliz tam fəaliyyətə başlayıb. Belə ki, TAP genişləndirilmiş CQBK və TANAP-la (Trans-Anadolu Qaz Boru Kəməri) nəql olunan Azərbaycan qazını qəbul edərək Avropadakı istehlakçılara çatdırır.

Əvvəlki illərdə olduğu kimi, "Şahdəniz" qazı çoxsaylı obyektlərinin fəaliyyətini təmin etmək üçün həmçinin BTC şirkətinə də verilir.

"Şahdəniz" qazı Bakı yaxınlığındakı Səngəçal terminalından CQBK-ya vurulur. Ümumi uzunluğu 692 kilometr olan bu xəttin 443 kilometri Azərbaycanın, 249 kilometri Gürcüstanın ərazisindən keçir. Kəmər "Şahdəniz" yatağından hasil edilən qazı Gürcüstana çatdırmaq, eləcə də Gürcüstan-Türkiyə sərhədinə nəql etmək məqsədilə çəkilib və 14 ildən çoxdur fəaliyyət göstərir.

CQBK-nın genişləndirilməsi Azərbaycan və Gürcüstan ərazilərindən keçən yeni 48 düym diametrli boru kəmərinin, həmçinin Gürcüstanda 2 yeni kompressor stansiyasının inşasını əhatə edib. Yeni kəmərin uzunluğu təqribən 489 kilometr təşkil edir (Azərbaycanda 424, Gürcüstanda 63, TANAP ara bağlantısında 2 kilometr). 2018-ci ilin ortalarında məhz genişləndirilmiş CQBK-nın fəaliyyətə başlaması ilə "Cənub qaz dəhlizi" ilə mavi yanacağın nəqlinə start verilib.

CQBK Gürcüstan-Tükiyə sərhədində TANAP-a, TANAP isə Türkiyə-Yunanıstan sərhədində TAP-a qovuşur. Dəhliz Yunanıstandan, Albaniyadan və Adriatik dənizinin altından keçməklə İtaliya torpağında yolunu sona çatdırır.

"Şahdəniz" layihəsində BP (operator - 28,8 faiz), TPAO (19 faiz), AzŞD (10 faiz), "Cənub Qaz Dəhlizi Apstrim" (6,7 faiz), PETRONAS (15,5 faiz), LUKOYL (10 faiz), NİKO (10 faiz) şirkətləri tərəfdaşlıq edirlər.

Əməliyyatçı şirkətin məlumatına görə, hazırda "Şahdəniz" qurğularının qaz hasilatı gücü gündə 56 milyon, ildə 20 milyard standart kubmetrdən çoxdur.

Keçən ilin ilk doqquz ayında yataqdan ümumilikdə təqribən 13,3 milyard standart kubmetr qaz və 2,7 milyon ton (21,6 milyon barel) kondensat hasil edilib.

"Şahdəniz"in kondensatı Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft kəmərinə vurulur. 2020-ci il ərzində "Şahdəniz"in kondensatı 223,4 milyon dollar gəlir gətirib.

Xatırladaq ki, ehtiyatları 1,2 trilyon kubmetr qaz və 240 milyon ton kondensatdan ibarət olan "Şahdəniz" dünyanın ən nəhəng karbohidrogen yataqlarındandır. Məhz bu yatağın uğurla işlənməsi və istismar edilməsi sayəsində Azərbaycan dünyada qaz ixrac edən ölkə kimi tanınıb.

Prezident İlham Əliyev həmişə "Şahdəniz"i yüksək dəyərləndirir və bu layihə olmadan enerji siyasətimizin yarımçıq qala biləcəyini qeyd edir: "Amma bu gün bizim enerji siyasətimiz ölkəmizin maraqlarını tam təmin edir. "Şahdəniz" yatağı ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcəkdir. Eyni zamanda biz ixrac coğrafiyamızı genişləndirmək əzmindəyik... Əgər "Şahdəniz" üzrə kontrakt imzalanmasaydı, bu gün biz nəinki başqa ölkələrin, öz enerji təhlükəsizliyimizi təmin edə bilməzdik. Çünki "Şahdəniz" bizim üçün əsas mənbədir. Biz bütün bu işləri görməklə Avrasiyanın yeni enerji xəritəsini tərtib edirik və Azərbaycan uzun müddət bundan sonra bir çox ölkələr üçün strateji tərəfdaş olaraq qalacaqdır."

Hazırda "Şahdəniz" yatağında bir neçə istiqamətdə iş aparılır. Son aylarda "Xankəndi" tikinti gəmisi sualtı quraşdırma işlərini planauyğun olaraq davam etdirib. "İsrafil Hüseynov" borudüzən gəmisi şərq-cənub cinahına bağlanan axın xətlərinin mexaniki quraşdırılmasını təhlükəsiz şəkildə başa çatdırıb. Bu, layihə üzrə mühüm bir işdir. Dərinsulu şərq-cənub cinahından (suyun dərinliyi 540 metrdir) hasilatın başlanması dənizdə quraşdırma və istismar sınaqları bitdikdən sonra bu ilin birinci yarısına planlaşdırılır. Gələcək illərdə digər iki dərinsulu cinahdan (qərb-cənub və şərq-şimal cinahları) da karbohidrogenlər əldə olunacaq və hasilatın planlaşdırılan ən yüksək sabit səviyyəsi təmin ediləcək.

Hasilatı artırmaq üçün qazma əməliyyatları da davam etdirilir. "İstiqlal" və "Maersk Explorer" qurğuları "Şahdəniz-2"də hasilatı həyata keçirmək və sonradan tədricən artırmaq üçün ümumilikdə 20 quyu qazıb. Bunlardan 16-sı tamamlanıb. Qazma işləri hasilatın planlaşdırılan sabit səviyyəsinə çatmaq üçün tələb olunan bütün quyuların qazılması istiqamətində davam edəcək.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Yeni elektrik enerjisi qurğuları Qarabağı tezliklə nura qərq edəcək



*Əvvəli 1-ci səh.*

Hazırda Prezidentin tapşırığı ilə bölgənin bərpası üçün müvafiq dövlət qurumları tərəfindən araşdırmalar aparılır, dəyən ziyan müəyyənləşdirilərək yeni evlərin tikilməsi, infrastrukturun yaradılması üçün layihələr hazırlanır.

Məlumdur ki, müasir dövrdə istənilən regionun inkişafında elektrik enerjisi ilə təminat mühüm rol oynayır. Odur ki, işğaldan azad edilmiş ərazilərin enerji ilə təminatı istiqamətində "Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən mühüm layihələr həyata keçirilir.

İlk növbədə Şuşanın ölkənin ümumi enerji sisteminə qoşulması və şəhərin dayanıqlı enerji ilə təchiz edilməsi üçün şəhərə 110 kilovoltluq yüksək gərginlikli elektrik verilişi xətti çəkilir. Bunun üçün Füzulidəki 110/35/10 kilovoltluq "Şükürbəyli" yarımstansiyası yenidən qurulur. Məqsəd yarımstansiyanın ümumi gücünü 50 MVA-dan 80 MVA-ya çatdırmaqdır. Yarımstansiyada müasir rəqəmsal avadanlıqlar quraşdırılmaqla onun məsafədən idarəolunması təmin ediləcək. Bu yolla obyektin enerji ötürmək qabiliyyəti artırılacaq. Bölgəni enerji ilə fasiləsiz və dayanıqlı təmin etmək üçün "İmişli" yarımstansiyasından "Şükürbəyli" yarımstansiyasına 51 kilometr məsafədən 110 kilovoltluq yüksəkgərginlikli əlavə xətt də çəkilir.

Paralel olaraq "Şükürbəyli" yarımstansiyasından Şuşaya 110 kV-luq yüksəkgərginlikli elektrik xətt çəkilir. Ümumi uzunluğu 75 kilometr olan Füzuli-Şuşa hava xətti ikidövrəli olacaq. Məqsəd qəza baş verdiyi halda fasilə yaranmasının qarşısını almaq üçün yükün bir xəttin üzərindən digər xəttin üzərinə keçirilməsinə nail olmaqdır. Artıq hava xəttinin 100-ə yaxın dayağı basdırılıb və 15 kilometrdən çox məsafədə naqil çəkilib.

Məlumdur ki, Şuşa ölkəmiz üçün mədəni, siyasi və strateji əhəmiyyət daşıyan şəhərdir. Bu səbəbdən də şəhərin ölkənin ümumi enerji sisteminə qoşulması, dayanıqlı elektrik enerjisi ilə təmin edilməsi mühüm əhəmiyyət daşıyır. Hazırda şəhərdə 110/35/10 kilovoltluq yarımstansiya tikilir. Yarımstansiya müasir avadanlıqlarla təmin edilərək məsafədən idarəolunan SCADA dispetçer idarəetmə sisteminə qoşulacaq. Burada 110 kilovoltluq açıq, 35 və 10 kilovoltluq qapalı paylayıcı qurğular quraşdırılacaq.

Erməni vandalları Kəlbəcər, Laçın və digər rayonlarda vaxtilə mövcud olan kiçik su elektrik stansiyalarını darmadağın edərək yararsız hala salıblar. Onlar avadanlıqları söküb aparıb, apara bilmədiklərini yandırıb və ya partladıblar. Hazırda həmin elektrik stansiyalarından heç biri yararlı vəziyyətdə deyil.

"Azərenerji" Prezident İlham Əliyevin işğaldan azad olunan torpaqların yaşıl enerji zonasına çevrilməsi ilə bağlı qarşıya qoyduğu vəzifləri reallaşdırmaq üçün işə başlayıb. Hazırda Laçın rayonu ərazisində yerləşən, 8 meqavat gücündə "Güləbird" Kiçik Su Elektrik Stansiyasında təmir-bərpa işləri yekunlaşmaq üzrədir. Döyüşlər zamanı ziyan dəymiş avadanlıqlar - stansiyanın maşın zalları, aqreqatları, generatorları, idarəetmə panelləri, transformatorları yeniləri ilə əvəzlənir və ya təmir edilir. Eyni zamanda Həkəri çayından gələn suyu hidroaqreqatlara ötürən və döyüşlər zamanı partladılaraq darmadağın edilən boru xətti yenidən çəkilir.

Növbəlilik əsasında aparılan sürətli işlər nəticəsində "Güləbird" Kiçik Su Elektrik Stansiyasının yaxın müddətdə istismara verilməsi planlaşdırılıb. Bunun üçün işə xüsusi briqadalar, podratçı təşkilatlar və mütəxəssislər cəlb edilib.

İlkin olaraq "Güləbird" Kiçik Su Elektrik Stansiyasındakı generatorun 10 kV-luq qurğusundan gərginlik Laçının və Qubadlının yaxın ərazilərindəki hərbi hissələrə, gələcəkdə isə yüksək gərginlikli xətt vasitəsilə Qubadlıda tikiləcək yeni 110 kV-luq yarımstansiyaya ötürüləcək.

"Azərenerji" eləcə də işğaldan azad edilən Suqovuşanda yerləşən ümumi gücü 7,8 meqavat olan "Suqovuşan-1" və "Suqovuşan-2" kiçik su elektrik stansiyalarında əsaslı təmir və bərpa işlərinə başlayıb. Qeyd edək ki, erməni qəsbkarları Suqovuşandakı 4,8 və 3 meqavat gücündə olan kiçik su elektrik stansiyalarının yararlı ehtiyat hissələrini sökərək daşıyıb, apara bilmədiklərini isə dağıdıblar. Hazırda "Suqovuşan-1"-in və "Suqovuşan-2"-nin maşın zalları, aqreqatları, generatorları, eləcə də idarəetmə mərkəzinin binası, panellər, avadanlıqlar, yarımstansiyanın gərginlik və cərəyan transformatorları təmir edilir və ya yenisi ilə əvəzlənir.

Aparılan işlərin yaxın aylarda başa çatdırılması planlaşdırılıb. İşlər bitəndən sonra ilkin olaraq Suqovuşan qəsəbəsi, Talış kəndi də daxil olmaqla yaxın ərazilərə elektrik enerjisi veriləcək. Daha sonra isə enerjipaylayıcı elektrik şəbəkəsinin yeni çəkilən elektrik xətləri digər istiqamətlərə də işıq paylayacaq.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Tərtərdə müharibə zamanı evlərə dəymiş ziyan aradan qaldırılır

### 44 günlük savaşda Tərtərin 40 yaşayış məntəqəsinə 21 raket, 16 mindən çox artilleriya mərmisi atılmışdır

İkinci Qarabağ müharibəsi milli dövlətçilik və hərb tariximizin şanlı və qürurverici səhifəsinə çevrilmişdir. Bu müqəddəs savaşda qazanılan parlaq qələbə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin yenilməz sərkərdə qüdrətinin, doğma vətənini canından artıq sevən Azərbaycan əsgərinin qəhrəmanlığı sayəsində gerçəkləşmişdir. Xalq və ordunun sarsılmaz vəhdəti dəmir yumruğa çevrilib məkrli düşməni darmadağın etmişdir.



İndi qarşıda duran vəzifə müharibənin vurduğu yaraları qısa zamanda sağaltmağa nail olmaqdır. Çünki müharibə kəndlərimizi, şəhərlərimizi dağıdıb viran qoymuşdur. Müharibədə həmçinin nə qədər vətən sevdalı oğullarımız şəhid olmuş, nə qədər igidimiz sağlamlığını itirib qaziyə çevrilmişdir. Məmnunluq doğurur ki, dövlət başçısı İlham Əliyevin böyük qayğısı sayəsində şəhid ailələri və Qarabağ qaziləri dövlətin və millətin ali ehtiram ünvanına çevrilmişdir. Bu gün Prezident İlham Əliyevin müəyyən etdiyi tələb belədir - şəhid ailələri, Qarabağ qaziləri bütün zəruri qayğı və diqqətlə əhatə olunmalı, onlar rahat evlərdə yaşamalı, sosial sıxıntı hiss etməməli, hər yerdə qayğı ilə qarşılanmalıdırlar. Əlbəttə, bu, çox doğru yanaşmadır. Axı onlar bu isti və doğma münasibəti qanları və canları bahasına haqq ediblər.

Müharibədən sonrakı dövrün bir ana xətti də tikinti, quruculuq və bərpa işləridir. Azərbaycan əsgəri ilə üz-üzə döyüşməyə cəsarət etməyən mənfur düşmən cəbhə xəttinə yaxın ərazilərdə kəndləri, şəhərləri də hədəf seçmiş, yaşayış məntəqələlərini raket və artilleriya atəşinə tutmuşdur. 44 gün davam edən müharibə zamanı elə gün olmurdu ki, Tərtər rayonunun ərazisinə mərmi düşməsin. Təsəvvür edin: ay yarım ərzində rayon mərkəzinə və kəndlərə 21 raket, 16 min 277 artilleriya mərmisi atılmışdır. Elə ev, elə həyət olub ki, ora bir neçə mərmi düşüb. Nəticədə 17 mülki vətəndaş şəhid olmuş, 63 nəfər yaralanmışdır.

Hazırda digər bölgələrdə olduğu kimi, Tərtərdə də müharibədən zərər görən evlərin tikintisinə, təmirinə və bərpasına başlanılmışdır. Müharibənin vurduğu zərərin miqyası isə çox böyükdür - 3548 fərdi ev, çoxmərtəbəli binalarda 1735 mənzil, 163 sahibkarlıq obyekti, 47 sosial obyekt, 28 inzibati bina, 103 maşın-mexanizm, 2 qazanxana. Təəssüflə qeyd edək ki, bu statistika hələ son deyil.

Dövlət başçısının müvafiq sərəncamı ilə yaradılmış dövlət komissiyasının mütəxəssislərindən ibarət işçi qruplarının iştirakı ilə ümumilikdə cəbhə bölgəsinə yaxın 11 rayon ərazisində zərər çəkmiş obyektlərə baxış keçirilir, qiymətləndirmə və təmir-tikinti işlərinin ilkin planlaşması aparılır. Tərtərdəki işçi qrupunun rəhbəri, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin əməkdaşı Vasif Quliyevlə Şıxarx ərazisində qaçqın və məcburi köçkünlər üçün inşa edilmiş yeni yaşayış məhəlləsində görüşdük. Artıq ərazidə dağılmış evlərin təmirinə başlanıb. Buradakı çoxmərtəbəli binalara çox sayda mərmi atılıb, 900-dən çox mənzilə ziyan dəyib. Vasif Quliyev:

- Təmir-tikinti işlərinə yeni başlamışıq. 10-dan çox ünvanda iş gedir. Hər gün işin miqyasını və sürətini artırmağa çalışırıq. Hazırda təmir-tikinti işlərinə cəlb edilənlərin sayı 100 nəfərdir. Onların əksəriyyəti Tərtər sakinləridir. Ən yaxın zamanda onların sayını 400 nəfərə çatdıracağıq. Üzərimizə düşən vəzifənin məsuliyyətini dərk edirik. Bütün səy və bacarığımızı səfərbər edərək çalışırıq ki, mühərəbinin vurduğu yaraları ən qısa zamanda sağaldaq, evləri dağıdılan ailələri əvvəlkindən də yüksək səviyyədə rahatlığa qovuşduraq.

Yeni yaşayış məhəlləsindəki 25 nömrəli binanın 3-cü mənzilində də təmir işləri aparılır. Evin sahibi Qüdrət Xudiyev:

- Mən kəlbəcərliyəm. Fikir verdinizmi daha məcburi köçkün demədim. Bizi bu xəcalətdən qurtaran müzəffər Ali Baş Komandan İlham Əliyevə, qəhrəman Azərbaycan əsgərinə minnətdarıq. Sağ olsunlar ki, 30 ilin həsrətinə son qoyub bizə qələbə sevinci bəxş etdilər. Bu gün isə dağılmış evimiz təmir olunur. Bunun üçün dövlətimizə minnətdarıq.

Tərtər şəhərinin Ş.Xətai küçəsində Razi Xəlilovun mərminin dağıtdığı evinin əvəzinə 2 otaqlı yeni evin tikintisinə başlanıb. Elman Səfərov küçəsində Sahib İsmayılovun ailəsi üçün isə 4 otaqlı evin bünövrəsi tökülmüşdür. Ailə top mərmisinin dağıdıb yararsız vəziyyətə saldığı evi müharibənin acı xatirəsi kimi saxlamaq fikrindədir.

Bu gün Tərtərdə xoş ovqat yaşanır. Hər zaman öz vətəndaşına sahib çıxan dövlətin qayğı payı Tərtərdə ehtiyac duyulan hər evə, hər ailəyə ünvanlanıb. Belə bir ölkənin vətəndaşı olmaq həqiqətən adamda qürur doğurur.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## "AzerGold" satış mərkəzi yaradır

Bu barədə QSC-nin idarə heyətinin sədri Zakir İbrahimov fevralın 2-də ötən ilin yekunları və qarşıda duran məsələlərə həsr olunan mətbuat konfransında deyib.

"Burada "AzerGold" tərəfindən istehsal edilən sikkə və külçələrin minimal mənfəət marjası ilə satışı və bu məhsulların qızılın dünya birjasındakı cari qiymətinə uyğun geri alışı reallaşdırılacaq. Beləliklə, "AzerGold" QSC-dən qızıl sikkə və külçələri əldə etmək istəyən müştərilər gələcəkdə bu məhsulları təkrar bazarda hansı qiymətə sata biləcəyini təxmin edəcəklər. Tətbiq edilməsi planlaşdırılan sistem bu sahədə ikinci əl bazarının "kölgə iqtisadiyyatı"ndan çıxarılmasına mühüm töhfə verəcək", - deyə Z.İbrahimov diqqətə çatdırıb.

## Azərbaycanlı mütəxəssislərə təlimlər keçiriləcək

Füzulidə inşa olunan yeni aeroportun tikildiyi ərazidə minaların təmizlənməsi üçün Şotlandiyanın "AARDVARK" şirkətindən mütəxəssis dəvət edilib.

AZƏRTAC xəbər verir ki, bu barədə şirkətin nümayəndəsi Devid Klark deyib. O bildirib ki, 50 hektarlıq ərazinin minalardan təmizlənməsi nəzərdə tutulur. Gün ərzində təqribən 2-3 hektar ərazini minadan təmizləmək mümkündür. Torpağın tərkibindən asılı olaraq bu rəqəm dəyişə bilər.

Şirkətin nümayəndəsi qeyd edib ki, Azərbaycanda olduğu müddətdə onlar bu sahədə olan yerli mütəxəssislərə minatəmizləmə maşınından istifadə qaydaları ilə bağlı təlim keçəcək.

"Təqribən 6-8 mütəxəssisə təlim keçiriləcək və sonda onlara sertifikatlar veriləcək", - deyə D.Klark əlavə edib.

# Qarabağ tarixi şöhrətini bərpa edəcək

*Əvvəli 1-ci səh.*

Bütün rayonlar, erməni vandallığının qurbanı olan hər bir şəhər və kənd ən yüksək şəkildə yenidən qurulacaq.

O cümlədən Şuşa bərpa ediləcək, onun əvvəlki şöhrəti özünə qaytarılacaq. Ermənistan işğaldan sonra Şuşanın erməniləşdirilməsinə çalışsa da, buna nail ola bilmədi. İlk növbədə ona görə ki, Şuşa şəhər olaraq tam şəkildə Azərbaycan milli arxitekturasını özündə təcəssüm etdirir. Bu şəhərin hər binası, hər küçəsi xalqımızın milli dəyərlərini daşıyır. Ona görə ermənilər nə qədər çalışsalar da, şəhəri erməniləşdirə bilmədilər. 28 ildə işğalçılar burada çoxlu sayda tədbirlər, idman yarışları təşkil etdilər, amma dünya Şuşanı erməni şəhəri kimi tanımaqdan uzaq oldu. Xaricdəki erməni diasporunun maliyyəsi ilə bir neçə infrastruktur layihəsi də icra etdilər, amma heç kim ermənilərə yad olan Şuşaya gəlmək istəmədi. Bəli, Şuşa erməniləri heç vaxt qəbul etmədi, tarixini saxtalaşdırmağa imkan vermədi. Özününküləşdirə bilməyən düşmən onu dağıtsa da, Şuşa sınmadı, vüqarı əyilmədi. *"Şuşa Azərbaycan xalqının qəlbində xüsusi yerə malikdir. Şuşa Qarabağın tacıdır, Şuşa təkrarolunmaz şəhərdir. Şuşanın yerləşməsi, təbiəti, havası, iqlimi, tarixi abidələri, dini abidələrimiz, şəhərin memarlıq ansamblı bizim milli sərvətimizdir. Şuşanı biz qorumalıyıq, qoruyacağıq. Biz Şuşaya qayıtmışıq və bundan sonra Azərbaycan xalqı Şuşada əbədi yaşayacaqdır. Necə ki, bütün dövrlərdə Şuşa həmişə Azərbaycan şəhəri olmuşdur və ermənilərin saxtakarlıq cəhdlərinə baxmayaraq, bütün dünya Şuşanı məhz Azərbaycan şəhəri kimi tanıyıb və qəbul edib"* deyə Prezident İlham Əliyev bildirib.

## İlham ƏLİYEV: "Mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm"

Prezident İlham Əliyev Şuşa şəhərinin bərpasına, dirçəldilməsinə xüsusi diqqətlə yanaşır. Təsadüfi deyil ki, dövlət başçısı Şuşanı Azərbaycanın mədəniyyət paytaxtı elan edib. İşğaldan azad edilmiş ərazilərdə Prezidentin ilk xüsusi nümayəndəsi Şuşa rayonuna təyin olunub.

Dövlət başçısı şəhərin bərpası ilə bağlı tapşırıqlarını verib. Bütün layihələr planlı şəkildə həyata keçirilməli, şəhərsalma işləri düzgün aparılmalı, Şuşanın tarixi siması saxlanılmalıdır. Şuşaya yad olan hər hansı bir tikiliyə yol verməl olmaz. Çünki Şuşa mədəniyyətimizin ünvanıdır. Şəhərin bərpasından sonrakı vəziyyəti də xalqımızın milli dəyərlərini əks etdirməlidir. İlk növbədə Bülbülün, Natəvanın, Üzeyir Hacıbəylinin büstlərinin yenidən Şuşaya qaytarılması da göstərdi ki, bu şəhər Azərbaycanın mədəniyyət paytaxtı adını daşımalıdır.

Lakin təəssüflə qeyd edilməlidir ki, bəzi dövlət qurumları zərurət olmadan Şuşa şəhərində öz regional bölmələrini açmaq fikrinə düşürlər. Bu barədə mətbuatda da informasiyalar yayılıb. Fevralın 1-də Abşeron Rayon Mərkəzi Xəstəxanasının yeni inşa edilən binasının açılışından sonra Azərbaycan Televiziyasına müsahibə verən Prezident İlham Əliyev bir sıra dövlət qurumlarının Şuşada nümayəndəliklərini, yerli qurumlarını, regional filiallarını yaratmaq barədə təşəbbüslərinə sərt etirazını bildirdi. "Bir də ki, mən Şuşanı mədəniyyət paytaxtı elan etmişəm, məmurlar paytaxtı elan etməmişəm! Ona görə hər kəs otursun yerində, öz işi ilə məşğul olsun, məni də əsəbləşdirməsin" deyən Prezident onu da bildirdi ki, heç bir qanunsuz hərəkət ola bilməz, heç bir torpaq zəbt oluna bilməz.

Bəli, Şuşanın bərpası şəhərin adına layiq, tarixinə və statusuna uyğun olmalıdır. Şəhidlərimizin qanı bahasına azad edilmiş şəhərimizdə hansısa dövlət qurumlarının populyarlıq naminə özbaşınalığına imkan verməl olmaz. Ona görə İlham Əliyev həmin dövlət qurumlarına sərt xəbərdarlıq etdi, onlara öz yerlərini göstərdi. İşğal dövründə düşmənə boyun əyməyən Şuşa Prezident İlham Əliyevin xüsusi nəzarət və diqqəti ilə qısa zamanda dirçələcək, milli mədəniyyətimizin ünvanı kimi tarixi şöhrətini bərpa edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

---

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiq edilmişdir*

# Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər

## QÜDRƏTLİ DÖVLƏT VƏ YÜKSƏK RİFAH CƏMİYYƏTİ

Ötən əsrin sonlarında Azərbaycan mürəkkəb tarixi dövr yaşasa da, sosial-iqtisadi və mədəni həyatında böyük təkamül yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi dünyada tanındı. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları uzun illər makroiqtisadi sabitlik və artıma mühüm töhfə vermiş, təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır.

Qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir. Bu çərçivədə regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişaf etməsi Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcəkdir.

Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir. Azərbaycan dövləti ölkədə əhalinin rifahının daha da artırılması üçün sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir.

Milli sosial rifah səviyyəsinin davamlı artması məqsədilə yüksək, dayanıqlı, inklüziv və başlıca olaraq özəl təşəbbüslərə arxalanan iqtisadi artımın sürətlənməsi, azad edilmiş ərazilərə əhalinin qayıdışının təmini Azərbaycanın yeni inkişaf magistralının ideoloji nüvəsini təşkil edir. Ölkəmizin uzunmüddətli davamlı və sürətli inkişafı üçün cəmiyyət, biznes və dövlət üçlüyünün uğurlu əlaqəsi möhkəmləndiriləcəkdir. Dövlətin iqtisadiyyatda rolunun bazaryönlü islahatlar vasitəsilə effektiv və səmərəli idarə olunması, özəl mülkiyyət institutlarının gücləndirilməsi, biznesə dost dövlət idarəetməsi və xarici bazarlara yerli məhsulların çıxışını artırmaq məqsədilə ticarət rejimlərinin daha da liberallaşdırılması iqtisadi yüksəlişin təməl amilləri olacaq. Ölkədə özəl təşəbbüslərin yaradıcı və innovativ əsaslarla inkişaf etdirilməsi iqtisadi resursların daha yüksək əlavə dəyər yaradan sahələrə istiqamətlənməsini təmin edəcəkdir.

Bu məqsədlərin reallaşdırılması dayanıqlı makroiqtisadi sabitliyə xidmət edən effektiv makroiqtisadi siyasət çərçivəsinin formalaşdırılmasını, iqtisadi inkişafın ortamüddətli və uzunmüddətli "hərəkətverici qüvvələri"nin möhkəmləndirilməsini ? insan kapitalının müasirləşdirilməsini, rəqəmsal iqtisadiyyatın genişləndirilməsini və iqtisadi suverenliyin tam təmin olunmasını tələb edir.

Növbəti onillikdə ölkənin sosial-iqtisadi inkişafına dair aşağıdakı beş Milli Prioritet reallaşdırılmalıdır:

1. dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat;
2. dinamik, inklüziv və sosial ədalətə əsaslanan cəmiyyət;
3. rəqabətli insan kapitalı və müasir innovasiyalar məkanı;
4. işğaldan azad olunmuş ərazilərə böyük qayıdış;
5. təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi.

Qeyd edilən Milli Prioritetlər, eyni zamanda, Birləşmiş Millətlər Təşkilatının "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn öhdəliklərin icrası istiqamətində də xüsusi əhəmiyyət kəsb edir.

## 1. DAYANIQLI ARTAN RƏQABƏTQABİLİYYƏTLİ İQTİSADİYYAT

Uzunmüddətli dövrdə iqtisadi artım sağlam və tarazlı olmalıdır. Belə iqtisadi artım ölkənin davamlı inkişafı üçün möhkəm zəmin yaradacaq. Bu prioritetin effektiv həyata keçirilməsi üçün aşağıdakı iki məqsəd təmin olunmalıdır:

- davamlı və yüksək iqtisadi artım;
- daxili və xarici təsirlərə dayanıqlıq.

### 1.1. Davamlı və yüksək iqtisadi artım

İqtisadi artım vətəndaşların həyatına təsir göstərən başlıca amillərdən biridir. İqtisadiyyatı davamlı və yüksək templərlə artırmaqla ölkədə **adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə** nail olunmalıdır. İqtisadi artım yüksək gəlirli iş yerləri yaratmaqla həyat səviyyəsinin ilbəil yaxşılaşmasını təmin etməlidir.

İqtisadi artımın davamlı olması, milli iqtisadiyyatın dərin şaxələnməsi, mallar və xidmətlər üzrə ixrac potensialının tam reallaşdırılması üçün yeni "hərəkətverici qüvvələr" tapılmalıdır. Neft sektoru sosial-iqtisadi inkişafın dayaqlarından biri olsa da, qeyri-neft iqtisadiyyatı inkişafın mərkəzinə çevrilməlidir.

İqtisadi artım qabaqcıl və effektiv özəl təşəbbüslərə söykənməli, dövlət və özəl əməkdaşlığı gücləndirilməlidir. Yenilikçiliyə malik özəl sektorda aktivlik daha da canlandırılmalı, **qeyri-neft sektorunun maliyyələşməsində özəl sektorun payı artırılmalıdır.**

Özəl sektorun, xüsusilə də kiçik və orta sahibkarlığın iqtisadi artımın və məşğulluğun başlıca mənbəyinə çevrilməsi üçün işgüzar mühit əhəmiyyətli dərəcədə yaxşılaşdırılmalı, məhkəmə-hüquq sistemində şəffaflıq artırılmalı, haqsız rəqabətin qarşısı alınmalıdır. Yeni və şəffaf özəlləşmə strategiyası həyata keçirilməlidir. Biznesin təşviqi mexanizmlərinin iqtisadi səmərəsi artırılmalıdır. Vergi və gömrük siyasəti dövlət büdcəsinin xərclərinin təmin edilməsi üçün adekvat imkanlar yaratmaqla yanaşı, sahibkarlıq fəaliyyətinin stimullaşdırılmasına xidmət etməlidir.

İqtisadiyyatda uzunmüddətli investisiya resurslarının əsas mənbəyi olan kapital və sığorta bazarının inkişafı sürətləndirilməlidir. Milli bank sektorunun dayanıqlığı təmin olunmalı, ona olan etimad yüksəlməli, real iqtisadiyyatın maliyyələşdirilməsində bankların payı artırılmalı və sahibkarlıq fəaliyyətinin inkişafına təkan verməlidir. Bank kreditlərinin sahibkarlıq fəaliyyəti üçün əlçatanlığını təmin edəcək real işlək mexanizmlər hərəkətə gətirilməli, bank kreditlərinin təminatı məsələlərində bürokratik əngəllər aradan qaldırılmalıdır.

Ölkə iqtisadiyyatına **birbaşa xarici investisiyaların,** o cümlədən infrastruktur sahələrinə strateji investorların cəlb olunması təmin edilməlidir. Lakin bu zaman ölkənin milli maraqlarının qorunması və xarici investorlara rəqabət mühitinin yaradılması ilə investisiyaların səmərəli tənzimlənməsi diqqət mərkəzində olmalıdır.

Dövlət investisiyalarının və dövlət şirkətlərinin fəaliyyətinin iqtisadi səmərəsi yüksəldilməli, bu sahədə şəffaflıq səviyyəsi artırılmalıdır. Dövlət şirkətlərinin kommersiya prinsipləri əsasında fəaliyyət göstərmələri üçün zəmin yaradılmalı, qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla korporativ idarəetmə standartları tətbiq edilməli və gəlirlilik səviyyələrinin artırılması təmin olunmalıdır.

**Kölgə iqtisadiyyatı minimuma endirilməli,** özəl və dövlət sektorunda şəffaflıq səviyyəsi ən yüksək standartlara çatdırılmalıdır. İqtisadi idarəetmədə müasir korporativ davranış mədəniyyətinin tətbiqi genişləndirilməli və təşviq olunmalı, korrupsiya ilə mübarizə gücləndirilməli, yeni çağırışlara cavab verən müasir dövlət qulluğu sistemi və etikası formalaşmalıdır.

### 1.2. Daxili və xarici təsirlərə dayanıqlıq

Milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan, xarici mühitdən təsirlənə bilir. Bu səbəbdən uzunmüddətli dövrdə iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlığı gücləndirilməli, makroiqtisadi sabitlik daha da möhkəmləndirilməlidir. Ölkədə makroiqtisadi sabitliyin və dayanıqlığın gücləndirilməsi məqsədilə yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmalıdır.

Yalnız şaxələnmiş iqtisadiyyat dayanıqlı ola bilər. Bunun üçün əsas məqsəd **iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına** nail olmaqdır.

Xarici təsirlərə dayanıqlıq sütunlarından birini dövlətin valyuta ehtiyatları, digərini isə intizamlı borclanma təşkil edir. Xarici valyuta ehtiyatlarının dayanıqlı səviyyədə saxlanılması üçün Dövlət Neft Fondundan transfertin dövlət büdcəsində payı tədricən azaldılmalıdır. Məcmu borc makroiqtisadi sabitliyə, o cümlədən dövlət büdcəsinin sabitliyinə xidmət etməlidir. Daxili borcun idarə edilməsi ölkədə maliyyə bazarlarının inkişafını dəstəkləməli, **xarici dövlət borcunun dayanıqlı səviyyəsi qorunmalı,** dövlət şirkətlərinin borclanmalarına nəzarət gücləndirilməli və bu əsaslarda dövlət və kvazi-dövlət borcunun idarəedilməsi təşkil olunmalıdır.

Makroiqtisadi sabitliyin əsas meyarı olan **qiymətlərin aşağı və stabil olması** təmin edilməlidir. Belə bir sabitlik iqtisadiyyatda gözləntiləri yaxşılaşdırmalı, əhalinin yığımlarını dəyərsizləşmədən qorumalı və investisiyaları artırmalıdır. Qiymətlərin sabitliyi daha effektiv lövbər vasitəsilə təmin edilməlidir. Makroiqtisadi sabitliyin digər mühüm meyarı olan dayanıqlı maliyyə sabitliyi maliyyə bazarlarının daim effektiv və səmərəli fəaliyyət göstərməsini, maliyyə dərinliyinin artmasını və maliyyəyə çıxışın genişlənməsini şərtləndirməlidir. Makroiqtisadi və maliyyə sabitliyini təmin edən idarəetmənin institusional çərçivəsi təkmilləşdirilməlidir.

## 2. DİNAMİK, İNKLÜZİV VƏ SOSİAL ƏDALƏTƏ ƏSASLANAN CƏMİYYƏT

Davamlı və yüksək iqtisadi artım dinamik və inklüziv cəmiyyətin formalaşmasına xidmət etməli, hər bir vətəndaş öz həyatında bu inkişafı hiss etməlidir. İnsanların sosial statusundan və yaşadığı ərazidən asılı olmayaraq iqtisadi imkanlara çıxışı bərabər və ədalətli olmalıdır. Bu prioritet aşağıdakı üç məqsəd əsasında uğurla reallaşa bilər:

- inkişafdan hər bir vətəndaşın bəhrələnməsi;
- yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət;
- paytaxt və regionların tarazlı inkişafı.

### 2.1. İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi

Yüksək inkişaf üçün yalnız iqtisadi artım deyil, cəmiyyətin bütün üzvlərinin sosial rifahı mühüm amildir. İqtisadiyyat inkişaf etdikcə vətəndaşların sərvət və gəlirlərinin, o cümlədən **əməkhaqlarının artırılaraq layiqli səviyyəsi** təmin edilməli, əməkhaqqının artımı əmək məhsuldarlığının artımı ilə uzlaşdırılmalıdır.

Ölkədə artan gəlirlər daha geniş iqtisadi imkanlar yaratmalı, bütün əhali qrupları üçün səmərəli məşğulluğa və layiqli əməyə nail olunmalı, xüsusilə **qadınların iqtisadi imkanlara çıxışı yaxşılaşmalıdır.**

Məşğulluqda özəl sektorun payının artması üçün zəruri stimullar yaradılmalı, **muzdla işləyənlərin sayında özəl sektor üzrə işəgötürənlərin payı** üstünlük təşkil etməlidir.

İqtisadiyyatın davamlı inkişafı **gəlirlərin ədalətli bölgüsünü təmin etməli, əhalinin aşağıgəlirli təbəqəsinin sosial-iqtisadi rifahını artırmalıdır.** Qeyri-formal məşğulluğun həcmi müəyyənləşdirilməli və qarşısının alınması üçün kompleks tədbirlər həyata keçirilməli, gəlirlərin leqallaşdırılması istiqamətində işlər görülməlidir.

### 2.2. Yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət

Ölkənin bütün təbəqələri cəmiyyətin ayrılmaz hissəsidir və dövlət onların qayğısına qalmalıdır. Ölkədə yoxsulluq səviyyəsinin minimuma endirilməsi və aşağı işsizlik səviyyəsi, eləcə də yoxsul təbəqənin ehtiyaclarının qarşılanmasına yönələn ünvanlı yardımların əhatə dairəsinin genişləndirilməsi vətəndaşların sosial müdafiəsinə əlavə imkanlar yaradır.

Sosial təminat sisteminin daha effektiv və ədalətli olması hesabına aşağıgəlirli və yoxsulluğa həssas təbəqənin, əlilliyi olan şəxslərin, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqların sosial müdafiəsi və sosial təminatı gücləndirilməlidir. Bu məqsədlə ölkədə **pensiya, müavinət, təqaüd və digər sosial ödənişlərin minimum məbləğlərinin layiqli səviyyəsinə** nail olunmalıdır. Pensiya təminatı sisteminin uzunmüddətli inkişafı üçün onun maliyyə dayanıqlığı gücləndirilməli, pensiya məbləğinin ödənilən sığorta haqqına mütənasibliyi artırılmalıdır.

Əlilliyi olan şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşadək uşaqlar üçün tələb olunan sosial reabilitasiya infrastrukturu əlçatan olmalı, bu şəxslərin məşğulluğuna dəstək proqramları genişləndirilməli, sosial təminatı gücləndirilməlidir. Sosial cəhətdən həssas əhali qruplarının maraq və mənafelərinə cavab verən, onlara bərabər iştirak imkanları yaradan sosial xidmətlər sistemi təmin olunmalıdır.

### 2.3. Paytaxt və regionların tarazlı inkişafı

Ötən dövrdə regionlarla müqayisədə ölkəmizin paytaxtı daha sürətlə inkişaf etmişdir. Uzunmüddətli dövrdə əsas məqsədimiz regionların inkişafının paytaxtın inkişaf səviyyəsinə uyğunlaşdırmaqdır. Bunun üçün regionlarda zəruri olan bütün iqtisadi və sosial infrastruktur yaradılmışdır.

Regionlarda iqtisadi aktivliyin daha da artırılması üçün mövcud iş qüvvəsi və bütün resurslar tamamilə iqtisadi dövriyyəyə cəlb edilməlidir. Regionların sürətli inkişafı insanların keyfiyyətli iqtisadi imkanlara və fiziki infrastruktura çıxışı ilə müşayiət olunmalıdır. Regionlar paytaxtla müqayisə oluna biləcək yaşayış standartlarına malik olmalıdır. Bu, **regionların milli gəlirdə payının artırılmasını** təmin edəcəkdir.

## 3. RƏQABƏTLİ İNSAN KAPİTALI VƏ MÜASİR İNNOVASİYALAR MƏKANI

Son dövrlərdə dünya iqtisadiyyatında müşahidə olunan inqilabi texnoloji dəyişikliklər şəraitində ölkələrarası rəqabət daha da artmışdır. Perspektiv həyat dərin rəqəmsallaşma, yeni texnologiyaların aktiv tətbiqi və insan iştirakı olmadan ən müasir sahələrin sürətli inkişafı ilə səciyyəvi olacaqdır.

Gələcək illərdə dünyada artan rəqabətə hazır olmaq üçün hər bir ölkənin prioriteti yüksək rəqabətli insan kapitalını formalaşdırmaqdır. Bunun üçün müasir təhsil, innovasiyaları təşviq edən münbit şərait və insanların sağlamlığı əsas şərtdir.

Bu prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı üç məqsədə nail olunmalıdır:

- XXI əsrin tələblərinə uyğun təhsil;
- yaradıcı və innovativ cəmiyyət;
- vətəndaşların sağlam həyat tərzi.

### 3.1. XXI əsrin tələblərinə uyğun təhsil

Dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafı müasir və güclü təhsilə arxalanmalıdır. Məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payı davamlı şəkildə artırılmalıdır. Strateji dövrdə kompetensiya, sosial vərdişlər və bacarıqların harmoniyada inkişafına əsaslanan "ömürboyu təhsil"ə xüsusi önəm verilməlidir. Erkən və məktəbəqədər təhsilin əhatə dairəsi genişlənməli və mərhələlərlə müvafiq yaşda olan bütün uşaqları əhatə etməlidir.

Cəmiyyətin inkişafının təminatçısı olan ümumi təhsilin gücləndirilməsi üçün təhsil sistemində gedən modernləşmə davam etdirilməli, məzmun islahatları dərinləşməli, inteqrativ tədris təcrübəsi inkişaf etdirilməlidir. Bu əsasda ölkənin **beynəlxalq qiymətləndirmələrdə (PISA, PIRLS, TIMSS, ICILS) mövqeyinin əhəmiyyətli dərəcədə yaxşılaşmasına** nail olunmalıdır.

Təhsil sistemi gənc nəsli gələcək rəqəmsal texnologiyalar dövrünə hazırlamaq üçün onlara məktəb yaşından rəqəmsal səriştələrin aşılanmasına diqqət yetirməli, indikindən əsaslı şəkildə fərqlənən yeni bacarıqlar, ixtisaslar və peşələr verməlidir.

İnsanların yüksək keyfiyyətli təhsil almaq imkanları genişləndirilməli, kadr hazırlığı əmək bazarının tələblərinə uyğunlaşmalıdır, peşə hazırlığı sisteminin inkişaf etdirilməsi tədbirləri çərçivəsində beynəlxalq sertifikatlara uyğun mütəxəssislər hazırlanmalıdır.

Güclü təhsil hesabına yüksək peşə bacarıqlarına malik insan kapitalı yaratmaq üçün **ali təhsil müəssisələrinin beynəlxalq səviyyədə keyfiyyət baxımından rəqabətədavamlığı** təmin olunmalıdır.

### 3.2. Yaradıcı və innovativ cəmiyyət

Gələcək dövrdə ən müasir texnoloji sahələri və innovasiyaları dəstəkləyən rəqəmsal cəmiyyət inkişafın aparıcı qüvvəsinə çevriləcəkdir. Ölkəni rəqabətdə irəli aparmaq üçün cəmiyyətin yaradıcılığını və innovativliyini stimullaşdıran ekosistem qurulmalıdır.

Yeni dövrdə qurulacaq ekosistem (müvafiq təşviqlər, inkubasiya və akselerasiya mərkəzləri, dövlət-özəl əməkdaşlığı əsasında maliyyələşmə modelləri, vençur və kraudfandinq institutları və s.) iqtisadiyyatın texnoloji tutumluluğunun artırılmasına yönləndirilməlidir. Dünyada gedən sürətli texnoloji tərəqqiyə çevik uyğunlaşmaqla texnoloji ixrac məkanına çevrilmək üçün perspektivlər yaradılmalıdır. Bu məqsədlə emal sənayesinin inkişafı dərinləşdirilməli, elmtutumlu və yüksək gəlir yaradan **orta və yüksək texnoloji sahələrin inkişafı** təmin edilməlidir. Nəticəyönümlü elmi tədqiqatların təşviqi üçün rəqabətli maliyyələşdirmə mexanizmləri formalaşdırılmalıdır.

### 3.3. Vətəndaşların sağlam həyat tərzi

Vətəndaşların uzunömürlülüyü və sağlam həyat tərzi təmin edilməlidir. Bu, vətəndaşların məhsuldar fəaliyyəti və sosial rifahının artırılması üçün mühümdür. Sağlamlıq və uzunömürlülük ölkədə səhiyyə sisteminin keyfiyyətindən birbaşa asılı olacaqdır. Müasir innovasiyaların səhiyyədə tətbiqi sahəsində yüksək nəticələr əldə edilməklə, keyfiyyətli **səhiyyə xidmətlərinin milli gəlirin yaranmasında payı artırılmalıdır.**

Keyfiyyətli səhiyyə və sağlam həyat tərzi hesabına əhalinin **orta ömür müddətinin artımına nail olunmalıdır.**

## 4. İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRƏ BÖYÜK QAYIDIŞ

Azərbaycanın ərazi bütövlüyünün təmin olunması xalqımızın çoxəsrlik tarixində möhtəşəm yer tutur. Dövlət sərhədlərini bərpa etməklə Azərbaycan xalqı son bir əsrdə hərbi və diplomatik sahədə ən böyük zəfərə nail oldu. Qələbənin əbədiləşdirilməsi üçün öz doğma torpaqlarından köçkün düşən insanların vətənə qayıdışı təmin olunmalıdır. Bu Böyük Qayıdış vətəndaşlarımızın işğaldan azad edilmiş ərazilərdə dayanıqlı məskunlaşmasında və bu ərazilərin ölkənin iqtisadi fəaliyyətinə qoşulmasında bir körpü olacaqdır.

Regionda yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizinin bərpa olunması ölkəmizin qlobal bazarlara çıxış imkanlarını artırmaqla yanaşı, işğaldan azad edilmiş ərazilərin inkişafına əhəmiyyətli təkan verəcəkdir.

Əvvəlki dövrlərdə olduğu kimi, işğaldan azad edilmiş ərazilərə qayıdan insanların təhlükəsiz yaşayışı təmin edilməli, bu region ölkənin ən abad guşələrindən birinə çevrilməlidir. Müasir həyatın əsası olan layiqli yaşayışın bərpası üçün bütün sahələrdə quruculuğa nail olunmalıdır. Bu, stimullar əsasında və dövlət-özəl tərəfdaşlığının inkişafı çərçivəsində həyata keçirilməlidir. Yalnız belə şəraitdə işğaldan azad olunan ərazilərin Azərbaycanın böyük gələcəyinə tam inteqrasiyasını təmin etmək mümkündür.

Bu prioritetin uğurla reallaşdırılması üçün aşağıdakı iki məqsədə nail olunmalıdır:

- dayanıqlı məskunlaşma;
- iqtisadi fəaliyyətə reinteqrasiya.

### 4.1. Dayanıqlı məskunlaşma

Azərbaycanın tarixi ərazi suverenliyinin bərpası əhalinin öz doğma torpaqlarına qayıdaraq yaşaması üçün yeni mərhələ yaratmışdır. İşğaldan azad olunmuş bölgələrdə əhalinin dayanıqlı məskunlaşması təmin edilməlidir. Bu məqsədlə həmin ərazilər cəmiyyətin ən sağlam, müasir və abad yaşayış mühitinə çevrilməli, dayanıqlı məskunlaşma üçün müasir prinsiplərə əsaslanan komfortlu yaşayış mühiti yaradılmalıdır.

Hərtərəfli təhlükəsiz və əlverişli həyat şəraitinin yaradılması vətəndaşların əbədi məskunlaşması üçün böyük əhəmiyyət daşıyacaq. Bunun üçün yeni ərazilərdə layiqli yaşayış təmin edilməli, müasir infrastruktur qurulmalı, rahat həyat tərzi və müasir xidmətlərə əlçatanlıq olmalıdır. Regionun iqtisadi potensialından səmərəli istifadə olunmaqla, **əhalinin məskunlaşma səviyyəsinin işğaldan əvvəlki səviyyəyə çatdırılması** təmin edilməlidir.

### 4.2. İqtisadi fəaliyyətə reinteqrasiya

İşğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial simasında tarixi mövqeyi bərpa edilməlidir. Yeni bölgə iqtisadi fəaliyyətin aparıcı həlqələrindən birinə çevrilməli və ölkənin digər regionlarına uyğun inkişaf səviyyəsinə malik olmalıdır. Regionun dayanıqlı inkişafı burada iqtisadiyyatın ehtiyaclarının doğru resurslarla təmin edilməsindən asılı olacaq, təbii resurs bolluğu və qazanılan tarixi imic bu ərazilərə sərmayə cəlbinə imkan verəcəkdir.

Möhkəm təməl üzərində qurulan yaşayışı təmin etməklə **bölgənin ölkə üzrə iqtisadi fəaliyyətdə payını işğaldan öncəki vəziyyətə çatdıra** və onu davamlı artıra bilərik. Bu prosesdə zəruri stimullara əsaslanan özəl təşəbbüslərin hərtərəfli təşviqi, eləcə də dövlət-özəl tərəfdaşlığının inkişafı vacibdir.

## 5. TƏMİZ ƏTRAF MÜHİT VƏ "YAŞIL ARTIM" ÖLKƏSİ

Qlobal iqlim dəyişikliklərinin miqyasını nəzərə alaraq ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməli, təmiz enerji mənbələrindən istifadə, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpası təşviq edilməlidir. Bu, istilik effekti yaradan qaz emissiyasını beynəlxalq normalara uyğun səviyyədə saxlanılması istiqamətində göstərilən səylərə mühüm töhfə olacaqdır.

Ölkənin perspektiv iqtisadi inkişafı ilə bərabər ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların sürətli bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə təmin edilməlidir. Bu prioritet daxilində strateji dövrdə aşağıdakı iki məqsədin effektiv reallaşdırılmasına nail olunmalıdır:

- yüksək keyfiyyətli ekoloji mühit;
- yaşıl enerji məkanı.

### 5.1. Yüksək keyfiyyətli ekoloji mühit

Ölkədə keyfiyyətli və təmiz ekoloji mühit qorunmalı və resurslardan səmərəli istifadə təmin edilməlidir. Uzun illər ərzində yaranan ekoloji problemlərin kompleks həlli və bu sahədə davamlı inkişaf diqqət mərkəzində olmalıdır.

Gələcək illərdə iqtisadi və demoqrafik artımdan ətraf mühitə gələ bilən risklər azaldılmalıdır. Bu məqsədlə ölkədə **ümumi ərazidə yaşıllıqların payı artırılmalıdır.**

İqtisadi artımla ekoloji mühit tarazlı olmalıdır. Ölkədə **yararsız torpaq sahələri dövriyyəyə cəlb edilməklə** mövcud resurslarımız bərpa edilməlidir. Ölkənin keyfiyyətli suya tələbatı su resurslarından səmərəli istifadə etməklə ödənilməlidir.

### 5.2. Yaşıl enerji məkanı

Strateji dövrdə qabaqcıl ölkələrdə alternativ və bərpa olunan enerji mənbələrindən istifadə xüsusilə daha çox artacaqdır. Bunu nəzərə alaraq, ölkədə enerjidən səmərəli istifadə edilməli və yeni dayanıqlı enerji mənbələrinə üstünlük verilməlidir.

İndiki və gələcək nəsillərin tələbatını dolğun ödəmək məqsədilə ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqi genişləndirilməlidir. Elmi-texniki potensiala əsaslanmaqla iqtisadiyyatın bütün sahələrində **alternativ və bərpa olunan enerji mənbələrinin ilkin istehlakda payı artırılmaqla** və iqlim dəyişikliklərinə təsir azaldılmalıdır. Ekoloji təmiz nəqliyyat vasitələrindən istifadə edilməsi ətraf mühitə və atmosfer havasının keyfiyyətinə müsbət təsir göstərəcəkdir.

# Qələbəni şərtləndirən əsas amil Ali Baş Komandanın qətiyyəti və iradəsi idi



"Azərbaycan xalqı illərlə həsrətlə gözlədiyi Qarabağa qovuşdu. Qısa müddət ərzində ordumuzun müzəffər qələbə qazanmasını, torpaqlarımızın düşmən tapdağından azad olunmasını şərtləndirən amillər çox idi. İlk amil əlbəttə ki, o ərazilərin bizim əbədi və əzəli torpaqlarımız olmasıdır. Biz başqasının deyil, öz torpağımız üçün mübarizə aparırdıq. Bizi güclü edən içimizdə olan bu sevgi idi" - Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının üzvü, xeyriyyəçi, "Liatris Holding"in rəhbəri Ruhi Əliyeva əməkdaşımızla söhbətində Vətən müharibəsinin böyük zəfəri ilə bağlı təəssüratlarını bölüşüb.

Qələbəni şərtləndirən ikinci əsas amilin Ali Baş Komandan İlham Əliyevin qətiyyəti və iradəsi olduğunu söyləyən Ruhi Əliyeva qeyd edib ki, hər bir əsgər məhz öz Sərkərdəsindən ilham alır, cəsarətlənir və ona inanırdı: "Əgər xatırlayırsınızsa, hərbi əməliyyatların üçüncü günü Rusiyanın təşəbbüsü ilə humanitar atəşkəs elan olundu. Ölkəmizdə bir qisim insanlar çox bədbinləşdi, onlar hesab etdilər ki, haqq işimiz yarımçıq qaldı. Amma cənab Ali Baş Komandan milyonlarla insana televiziya vasitəsi ilə müraciət edərək heç bir qüvvənin ona mane ola bilməyəcəyini, nəyi nə vaxt etməyi gözəl bildiyini və Qarabağımızın azad olunması üçün sonadək iradə nümayiş etdirəcəyini bildirdi. Ali Baş Komandanın müraciətini tək Azərbaycan xalqı izləmirdi. Dünyanın bütün xalqları, liderləri və siyasətçiləri Prezidenti diqqətlə dinləyir, onun xarizması və mövqeyi alqışlanırdı. Hətta Ermənistanda da İlham Əliyevin çıxışlarına baxan erməni xalqı artıq Qarabağda işğalın başa çatacağını anlayırdı. Ali Baş Komandan siyasət meydanında da üzərinə gələn bütün siyasi hücumları məharətlə dəf edirdi".

Azərbaycan qadınının Vətən müharibəsində böyük fədakarlıq göstərdiyini vurğulayan Ruhi Əliyeva yüzlərlə qadın tibb işçisinin könüllü olaraq ön xəttə gedərək yaralı əsgərlərimizə tibbi yardımlar göstərdiyini xatırladır: "Öz uşaqlarını evdə qoyub əsgərlərimizə tibbi kömək edən qadınları cəbhəyə ancaq bir şey apara bilərdi - Vətən sevgisi. Azərbaycan qadınının siması olan Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaralı əsgərlərimizlə görüşü hələ də gözlərim önündədir. O, əsgərlərimiz üçün necə də göz yaşları tökürdü. Bunu sadəcə öz xalqını, əsgərini sevən qadın edə bilərdi. Bütün dünyada mərhəməti, insanlığı və xoş ideyaları ilə tanınan Mehriban xanım Azərbaycan əsgərinin yanında idi. Yüzlərlə qadınımız öz əlləri ilə hazırladığı yeməkləri, evlərində olan isti paltarları cəbhəyə göndərirdi. Azərbaycan qadınının bir şüarı vardı: Hər şey cəbhə üçün!"

Qarabağda qazanılmış qələbəyə görə döyüşçülərə, qazilərə minnətdar olduğumuzu və onların istənilən probleminə hər bir məmurun diqqətlə yanaşmasının vacibliyini söyləyən müsahibimiz döyüşlərdə yüz minədək hərbçinin iştirak etdiyini deyir: "Əlbəttə, bu, böyük bir rəqəmdir. Prezident isə təkdir. O, təkbaşına bütün problemləri həll edə bilməz. Burada məmurlar üzərlərinə düşən vəzifələri vicdanla yerinə yetirməlidir. Dünyada baş verən bütün müharibələrdən sonra dövlətlər müəyyən iqtisadi çətinlik çəkirlər. Çünki dövlət bütün resurslarını müharibə üçün sərf edir. Onun təkrar özünə gəlməsi və yenidən əvvəlki vəziyyətinə qayıtması üçün zamana ehtiyacı olur. Biz hər birimiz bunu anlamalıyıq. Özünüz də görürsünüz ki, artıq qazi və müharibə iştirakçılarının əksəriyyətinin sosial problemləri həll edilib və yerdə qalanlar da qısa zamanda həllini tapacaq. Bundan istifadə edib ölkədə qarışıqlıq yaratmaq istəyənlər isə aciz adamlardır və onlar öz istəklərinə heç bir zaman nail ola bilməyəcəklər".

Yeni Azərbaycan Partiyasının Qadınlar Şurasının aktiv üzvlərindən olan Ruhi Əliyeva ictimai-siyasi fəallığı ilə fərqlənir. Partiyanın ideyalarına xidmət etməklə İlham Əliyevin siyasətini daim dəstəkləyən müsahibimiz vurğulayır ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin qurucusu olduğu YAP-a bu gün Azərbaycanda uşaqdan-böyüyə hər kəsin sevdiyi İlham Əliyevin liderik etməsi təşkilatın mütləq uğurunu təmin edir.

Qadınların hüquqlarının qorunması ilə bağlı çoxsaylı layihələr həyata keçirən müsahibimiz bildirir ki, Azərbaycanda qanunvericiliyin tələblərinə görə, qadın və kişi hüquqları tam bərabərdir. Dövlət də bu prinsipin prioritetliyini tam təmin edir: "Amma qəbul etməliyik ki, əksər ailələrdə bu norma pozulur. Kişilərin fiziki gücü onların ailədə üstünlüyünü təmin edir. Bəzən qadınlarımız ailədə şiddətə, zorakılığa və psixoloji təzyiqə məruz qalır. Bu kimi hallarda qadınlarımız hüquqlarını bilmir. Silsilə olaraq həyata keçirdiyimiz "Qadına şiddətə son!" layihələrinin məqsədi də qadınlara hüquqlarını başa salmaq, cəmiyyətin diqqətini bu xüsusatlara çəkmək, həmçinin kişiləri bu əməllərdən əl çəkməyə vadar etməkdir. Qadın anadır, bacıdır. Qadın insanlıq tarixinin gələcəyidir".

İşğaldan azad edilmiş Qarabağda da layihələr həyata keçirmək niyyətində olan Ruhi Əliyeva söyləyir ki, "erməni vəhşilərinin Qarabağı necə viran qoyduğunu bütün dünya gördü. Cənab Prezident də çıxışlarında dedi ki, biz Qarabağı əvvəlkindən də gözəl etməliyik. Bununla bağlı dövlət proqramı var. Oradakı infrastruktur düzəlməli, qəsəbə və kəndlər yenidən salınmalıdır. Bununla bağlı dövlətimizin üzərinə çox böyük yük düşür. İnşallah bu məsələlər həll olub orada normal həyat başladıqdan sonra biz də qadın və uşaqlarla bağlı layihələr həyata keçirməyi düşünürük".

Ruhi Əliyevanın rəhbərlik etdiyi "Liatris Holding"in tərkibində "News24.az" xəbər saytı da fəaliyyət göstərir. Müsahibimiz ölkəmizdə medianın mövcud durumu barədə də fikirlərini bölüşdü: "Bu gün Azərbaycanda media çoxşaxəlidir. Hazırda media sosial şəbəkələrlə qarşılıqlı və çox dayanıqlı mübarizə aparır. Media üzərində dövlət senzurası yoxdur. Kim nəyi necə görür və necə düşünürsə, o cür də yazır. İstəyim odur ki, Azərbaycanda jurnalistlər həmişə məlumatları dəqiqləşdirib yazsınlar, qərəzli və yanlış xəbərləri yayımlamasınlar. Medianı sosial şəbəkələrdən fərqləndirən də bu xüsusiyyətdir. Dəqiq və qərəzsiz olmaq, qarşı tərəfi dinləmək və onun mövqeyini işıqlandırmaq medianın vəzifəsidir. Bu prinsiplər prioritet olmalıdır. Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bir çox məsələləri məhz mətbuatdan xəbər tutduğunu qeyd edib. Prezidentin mediaya olan bu güvənini, etibarını qətiyyən itirmək olmaz. Bu səbəbdən də rəhbərlik etdiyim saytda çalışan bütün jurnalistlərə yanlış və qərəzli məlumatları yayımlamaqdan uzaq olmalarını bildirmişəm. Azərbaycan o dövlətlərdəndir ki, burada jurnalistlərə dövlət qayğısı var. Dövlət onları evlə təmin edir, sosial problemlərinin həllində yardımçı olur. Dövlət hətta müxalif fikirli, dövlət orqanlarını, hətta siyasi elit hakimiyyəti belə tənqid edən jurnalistləri də evlə təmin edir və bu gün həmin jurnalistlər yenə də əvvəlki mövqelərindədir. Tək bu amil göstərir ki, dövlət həmin evləri və təqaüdləri heç bir şərtlə vermir. Bu qayğı ümumilikdə Azərbaycan jurnalistikasının inkişafına dəstək niyyəti daşıyır. Bu gün bəzilərinin tərif etdiyi Avropa ölkələrinin heç birində jurnalistikaya belə bir qayğı yoxdur".

Ruhi Əliyeva gənclərimizlə bağlı arzularını da bölüşdü: "Qarabağımızı azad edib şücaət, qəhrəmanlıq göstərən bugünkü gəncliyimizdir. Deməli ki, gənclərimizin Vətən sevgisinə söz ola bilməz. Bu gün Azərbaycan gəncliyi müasir dünya ilə ayaqlaşmağı bacarır. Bu gün Azərbaycan dövləti, şəxsən dövlət başçısı İlham Əliyev gənclərimiz üçün istənilən şəraiti yaradıb və hesab edirəm ki, gənclərimiz bundan maksimum yararlanmağı bacarırlar. Millətimizin və dövlətimizin gələcək istiqbali məhz bu gənclərin bilik və bacarığından asılıdır. Savadla yanaşı, vətənpərvərlik həmişə öndə olmalıdır".

*Xəyalə MURADLI, "Azərbaycan"*

# Bakının Nizami rayonunda "Bizim həyət" layihəsi çərçivəsində abadlaşdırılan növbəti həyət sakinlərin istifadəsinə verilib





Fevralın 2-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Bizim həyət" layihəsi çərçivəsində növbəti abadlaşdırılmış həyət sakinlərin istifadəsinə verilib.



AZƏRTAC xəbər verir ki, yenilənmiş həyət paytaxtın Nizami rayonu, Əli Vəliyev küçəsi, 7, 7a ünvanında yerləşir və təxminən üç min sakinin yaşadığı binaları əhatə edir.

"Bizim həyət" layihəsinin əsas məqsədi Bakı həyətlərinin ekoloji cəhətdən təmiz və abad edilməsi, şəhər ekologiyasının sütununu təşkil edən yaşıllıqların bərpası, sağlam həyat tərzinin formalaşdırılması, sakinlər üçün təhlükəsiz və rahat yaşam şəraitinin yaradılmasıdır.

Abadlaşdırılan növbəti həyətdə əlil və sağlamlıq imkanları məhdud olan insanların rahat hərəkəti nəzərə alınıb, bütün yaş qrupları üzrə uşaqların inkişafı üçün əlverişli şəraitin yaradılması, gənclərin asudə vaxtlarını səmərəli keçirmələri və onlarda sistematik idmanla məşğulolma refleksinin yaradılması məqsədilə müxtəlif idman qurğuları, futbol və şahmat meydançası, uşaqlar üçün oyun meydançası salınıb.

Həyətin ərazisində 6 söhbətgah inşa edilib, oturacaqlar, tullantılar üçün qutular, quş yuvaları quraşdırılıb.

Sakinlərin istək və maraqları nəzərə alınaraq, həyətdə yeni işıqlandırma dirəkləri, təhlükəsizlik kameraları quraşdırılıb, binaların fasadları, dam örtükləri və giriş hissələri tam təmir olunub. Həyətin ərazisindəki mövcud yaşıllıqların bərpası ilə yanaşı, əlavə olaraq xüsusi karantin rejiminin qaydalarına riayət etməklə 200 ədəd ağac əkilib.

Yenilənmiş həyətdə karantin dövrünün tələblərinə uyğun olaraq tibbi-profilaktiki tədbirlər həyata keçirilib, dezinfeksiya dispenserləri qoyulub, karantin rejimi qaydalarına riayət olunması ilə bağlı xəbərdarlıq edən maarifləndirici lövhələr quraşdırılıb.

## Biz birlikdə güclüyük!

# Koronavirusdan qlobal səviyyədə ümidverici xəbər

*Əvvəli 1-ci səh.*

Bu o deməkdir ki, hətta yeni variantların yaranması ilə belə virusa nəzarət etmək olar".

Tedros Adhanom Gebreyesus vurğulayıb ki, bu, pandemiyaya görə bütün dünyada həyata keçirilən tədbirlərin səmərəliliyini nümayiş etdirib.

### Sevinmək hələ tezdir

Proqnoz ümidverici olsa da, elə ÜST-ün hər gün verdiyi yeni statistika göstərir ki, sevinmək hələ tezdir. Adıçəkilən təşkilatın məlumatına görə, dünyada son bir gündə 444 mindən çox insanda koronavirus aşkarlanıb. 10 885 pasiyent vəfat edib. Beləliklə, dünyada "COVID-19"a yoluxma hallarının ümumi sayı 102 milyonu ötüb, 2,2 milyondan çox insan bu virusun qurbanı olub. Dünyada yoluxma sayına görə ön sırada ABŞ-dır. Bu ölkədə 25 milyondan çox insan koronavirusa yoluxub. Təhlükəli virusa ən çox yoluxma sayına görə ikinci yerdə Hindistan (10,7 milyondan çox) dayanır. Daha sonra Braziliya (9 milyondan çox), Rusiya (3,8 milyondan çox), Böyük Britaniya (3,7 milyondan çox), Fransa (3 milyondan çox) gəlir.

Ölkəmizdə koronavirusa yoluxma və ölüm hallarının azalması davam edir. Pandemiyanın yayılması və aşkarlanması ilə bağlı son statistikaya əsasən, ölkə üzrə koronavirusa ən çox yoluxma 52.2 faiz olmaqla yenə də Bakıda qeydə alınıb. Sonrakı sıraları Aran rayonları (13.3 faiz), Abşeron (12.9 faiz), Gəncə-Qazax (8.1 faiz), Şəki-Zaqatala (3.2 faiz), Quba-Xaçmaz (3.0 faiz), Lənkəran (2.9 faiz), Dağlıq Şirvan (2.5 faiz), Yuxarı Qarabağ (1.4 faiz) və Naxçıvan (0.04 faiz) tutur. Ölkəxarici yoluxma isə 0.4 faiz təşkil edir.

Paytaxt rayonları üzrə bu dəfə də ən çox yoluxma Binəqədi rayonunda qeydə alınıb. Belə ki, rayonda yoluxma 15.1 faiz təşkil edir. Yoluxma sayı Xətaidə 13.1 faiz, Yasamalda 12.2 faiz, Sabunçuda 10.8 faiz, Suraxanıda 8.2 faiz, Nərimanovda 8.2 faiz, Nəsimidə 7.8 faiz, Nizamidə 7.0 faiz, Xəzərdə 6.9 faiz, Qaradağda 5.3 faiz, Səbaildə 5.0 faiz, Pirallahıda 0.5 faiz təşkil edib.

Məlumata görə, ümumi yoluxanların 54 faizi qadınlar, 46 faizi isə kişilərdir.

Təcrübə göstərir ki, bu təhlükəli virusa yoluxma və ölüm hallarının azalması stabil olmaya bilər. Arxayınlaşmaq, müəyyən olunmuş qaydalara etinasız yanaşmaq koronavirusun yenidən güclənməsinə şərait yarada bilər. Bu baxımdan COVID-19 pandemiyası ilə mübarizə sahəsində Azərbaycanda həyata keçirilən tədbirlərin davamlı olması təqdirəlayiqdir. Elə buna görə də bu istiqamətdə görülən işlər və əldə olunan nəticələr ölkə əhalisi tərəfindən məmnunluqla qarşılanır. Vətəndaşların onların təhlükəsizliyi və sağlamlığı istiqamətində görülən kompleks tədbirləri yüksək qiymətləndirdikləri bir sıra nüfuzlu təşkilatlar tərəfindən keçirilən sosioloji tədqiqatlarda əksini tapıb.

2010-cu ildən Oksford Universitetinin nəzdində fəaliyyət göstərən "Blavatnik School of Government" da bu istiqamətdə sosioloji tədqiqat keçirib. Tədqiqat çərçivəsində 2020-ci ilin martından başlayaraq dünyanın 180-dən çox ölkəsinin COVID-19-la bağlı siyasətinə dair xüsusi indeks hazırlanır və gündəlik olaraq yenilənir.

Bu il yanvarın 1-nə olan nəticələrə görə, Azərbaycan xüsusi indeks üzrə 84,26 bal toplayaraq Gürcüstan, Yunanıstan, Honduras, İtaliya, Liviya, Hollandiya və Venesuela ilə birlikdə 4-11-ci yerləri bölüşür. Ölkəmizin bu indeksdə ən yüksək reytinqi 2020-ci ilin avqustunda Honduras və Omandan sonra 93,52 bal ilə 3-cü yerdə qərarlaşması olub.

### Vaksinasiya sahəsində səmərəli işin təzahürü

Dünya koronavirusu dəf etməyin yollarını aramaqda davam edir. Mütəxəssislər hazırda bu təhlükəli virusdan qorunmağın ən effektiv yolunun vaksinasiya olduğu qənaətindədirlər. Dünyanın əksər ölkələrində artıq koronavirus əleyhinə peyvənd edilir. Azərbaycanda da vaksinasiya prosesinə start verilib. Vaksinasiya prosesi genişləndikdən sonra ölkədə vəziyyətin daha da yaxşılaşacağına ümid edilir.

Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində ölkədə aparılan vaksinləmə prosesindən də danışıb. Həyata keçirilən işlərin müsbət qiymətləndirildiyini bildirən dövlət başçısı Azərbaycanın Cənubi Qafqazda vaksinasiyaya start verən ilk ölkə olduğunu qeyd edib: "Eyni zamanda yerləşdiyimiz bölgədə Azərbaycan birincilər sırasındadır. Onun nəticəsidir ki, pandemiyanın ilk günlərindən işlər düzgün qurulmuşdur, bütün lazımi addımlar atılmışdır, beynəlxalq təşkilatlarla təmaslar qurulmuşdur. Biz COVAKS təşəbbüsünün üzvüyük və COVAKS xətti ilə müxtəlif vaksinləri ölkəmizə gətirəcəyik. Eyni zamanda biz bir neçə şirkətlə vaksinlərin ölkəmizə gətirilməsi ilə bağlı müqavilələr bağlamışıq. Amma onların bəzilərinin icrası indi yubanır, yəqin ki, bax, dediyim bu səbəblərə görə. Eyni zamanda biz artıq 4 milyon doz vaksin sifariş etmişik və onların artıq Azərbaycana gəlməsi təmin edilib, Çin istehsalı olan vaksinlər. Yanvarın 18-dən başlayaraq Azərbaycanda vaksinasiya başlamışdır. Müqayisə üçün deyə bilərəm ki, Avropa İttifaqında bu, keçən il dekabrın 18-də başlamışdır. Yəni bir aydan sonra artıq Azərbaycan vətəndaşları bu vaksinləri alırlar, peyvənd olunurlar, əlbəttə ki, bu, vaksinasiya sahəsində də bizim səmərəli işimizin təzahürüdür".




*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# İstedadlı və yaradıcı gənclər mükafatlandırılıb

## Göygöl şəhəri 2021-ci ilin "Gənclər paytaxtı" elan edilib







2 fevral - Azərbaycan Gəncləri Günü münasibətilə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında tədbir keçirilib. Gənclər və İdman Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə əvvəlcə 2020-ci ildə nazirliyin fəaliyyətini əks etdirən videoçarx nümayiş olunub.




Sonra Prezident Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri, Birinci vitse-prezidentin köməkçisi Yusuf Məmmədəliyevin, Milli Məclis sədrinin müavini, Gənclər və idman komitəsinin sədri Adil Əliyevin, gənclər və idman nazirinin müavini İntiqam Babayevin və Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərovun gənclərə təbrik və müraciətlərindən ibarət videoçarx təqdim edilib.

Tədbirdə Gənclər və İdman Nazirliyi tərəfindən ötən il mədəniyyət, elm, təhsil, rəssamlıq, bəstəkarlıq, fotoşəkil, memarlıq və ictimai sahələrdə fəallıqları ilə fərqlənən 62 gənc və gənclər təşkilatına pul mükafatları və diplomlar verilib.

Ötən il nazirliyin fəaliyyətini onlayn şəkildə davam etdirməsinə baxmayaraq, bu dövrdə də gənclərlə bağlı bir çox layihələr uğurla gerçəkləşdirilib. Nazirliyin mərkəzi aparatı tərəfindən 2020-ci ildə gənclərin müxtəlif sahələrdə maraqlarını əhatə edən 115 tədbir və layihə həyata keçirilib.

Gənclər evləri haqqında məlumat verilərkən diqqətə çatdırılıb ki, "Gənclər siyasəti haqqında" qanuna və "Azərbaycan Gəncliyi" Dövlət proqramlarına müvafiq olaraq Gənclər və İdman Nazirliyinin tabeliyində 12 Gənclər evi fəaliyyətə başlayıb. 2020-ci ildə Nazirlər Kabinetinin müvafiq qərarı ilə əlavə olaraq daha 15 Gənclər evi nazirliyin tabeliyinə verilib. Mövcud Gənclər evlərindən 19-u aktiv fəaliyyət göstərir. Digər 8 Gənclər evi isə cari ildə müvafiq sənədləşmə işlərinin yekunlaşmasından sonra fəaliyyətə başlayacaq. Ötən il Gənclər və İdman Nazirliyinin tabeliyində olan Gənclər evləri tərəfindən 1851 tədbir keçirilib. Onlardan 470-i vətənpərvərlik sahəsində, 205-i isə pandemiya ilə bağlı olub. Ümumilikdə 112 min 835 gənc Gənclər evləri tərəfindən keçirilən tədbirlərdə iştirak edib. Gənclər evlərinin fəaliyyəti Nazirlər Kabinetinin 2016-cı il 8 iyun tarixli qərarı ilə təsdiqlənmiş Gənclər evi sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması qaydaları ilə tənzimlənir.

Azərbaycan Gəncləri Günü münasibətilə keçirilən istedadlı və yaradıcı gənclərin mükafatlandırılması mərasimində ölkənin 5 şəhəri - Göygöl, Xaçmaz, Mingəçevir, Sabirabad, Tovuz arasında püşkatma keçirilib. Püşkatmanın nəticəsinə əsasən Göygöl şəhəri 2021-ci il üçün Azərbaycanın "Gənclər paytaxtı" elan edilib.

2012-ci ildən başlayaraq hər il paytaxt Bakı şəhəri istisna olmaqla, Azərbaycanın şəhər və rayonlarından biri "Gənclər paytaxtı" elan olunur. Bugünədək Gəncə, Biləsuvar, Quba, İsmayıllı, Şəmkir, Balakən, Naxçıvan, Şamaxı, Masallı şəhər və rayonları Azərbaycanın "Gənclər paytaxtı" seçilib.

Daha sonra "Zoom" proqramı vasitəsilə Gənclər Gününə həsr olunmuş toplantı keçirilib.

# Sosial şəbəkələrdə koronavirusla bağlı yalan xəbəri paylaşan şəxs müəyyən edilib

Son günlər sosial şəbəkələrdə Azərbaycanda koronavirusun üçüncü dalğasının daha qorxulu və acınacaqlı olacağı, bu mərhələdə uşaqların kütləvi yoluxacağı və onlar arasında çoxsaylı ölüm hallarının baş verəcəyi, eləcə də xəstə uşaqların qəbulu üçün xəstəxanalarda hazırlıq işlərinin aparıldığı barədə səs yazısı yayılıb.

AZƏRTAC Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) saytına istinadla xəbər verir ki, həmin səs yazısı həkim tərəfindən paylaşıldığından vətəndaşlar arasında vahimə və təşviş doğurmaqla yanaşı, cəmiyyətdə dövlətin koronavirusla mübarizə tədbirlərinə inamsızlığa şərait yaradıb.

DTX tərəfindən aparılmış araşdırmalar nəticəsində vətəndaşlar arasında çaşqınlığa və əsassız narahatlığa səbəb olmuş həmin xəbəri paylaşan şəxsin Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutunun həkimi, hazırda koronaviruslu xəstələrin müalicəsi ilə əlaqədar Qobustan Rayon Mərkəzi Xəstəxanasına ezam olunmuş, 1974-cü il təvəllüdlü Məcidova İlahə Telman qızı olduğu müəyyənləşdirilib.

İlahə Məcidova özünün səhv mülahizələrinə əsaslanan səs yazısını paylaşmasından peşman olduğunu, koronavirus pandemiyası ilə əlaqədar indiki həssas dönəmdə bu hərəkətinin doğura biləcəyi ağır nəticələr barədə düşünmədiyini etiraf edərək ictimaiyyətdən üzr istəyib.

Onun məsuliyyətə cəlb edilməsi məsələsi qanunvericiliyə uyğun qaydada həll olunacaq.

DTX bir daha sosial media təmsilçiləri və sosial şəbəkə istifadəçilərindən koronavirus epidemiyası ilə bağlı məlumatları bölüşərkən diqqətli olmağı, qeyri-rəsmi və dəqiqləşdirilməmiş xəbərlərin yayılmasına yol verməməyi, yalnız aidiyyəti dövlət qurumlarının məlumatlarına etibar və istinad etməyi xahiş edir.

# İqor KOROTÇENKO: "Ermənistan özünün qisasçılıq planlarına Avropada və ABŞ-da dəstək tapmağa çalışır"

"Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko Ermənistanın Niderlanddakı səfiri Tiqran Balayanın Avropada Rusiyaya qarşı "Navalnı sanksiyaları"na analoji olaraq, Azərbaycana qarşı sanksiyalar tətbiq olunması çağırışını şərh edib.

AZƏRTAC xəbər verir ki, İ.Korotçenko "Vestnik Kavkaza" agenliyinə müsahibəsində Ermənistan səfirinin davranışının respublikanın beynəlxalq öhdəlikləri ilə ziddiyyət təşkil etdiyini və onun müttəfiqlik münasibətləri, xüsusən Rusiya ilə müttəfiqlik münasibətlərinə qarşı olduğunu vurğulayıb.

Xatırladaq ki, Niderlandın "Weekblad Elseveir" nəşrinə müsahibəsində Tiqran Balayan "təqdirəlayiq nümunə" kimi Rusiyaya qarşı "Navalnı sanksiyalarına" istinad edib.

İqor Korotçenko deyib: "Rusiyaya müttəfiq olan ölkənin səfiri buna bənzər bəyanatlarla çıxış edərkən, biz onu siyasi marginal adlandıra bilərik. Təəssüf ki, bu gün Ermənistanda elita və dövlət qulluqçuları arasında siyasi marginallar çoxdur. Bu müsahibə bütövlükdə, millətçiliyin, kobud təbliğatın və siyasi reallığı anlamamağın əyani təzahürüdür".

Ekspertin vurğuladığı kimi, Ermənistan döyüş meydanında uduzmasına baxmayaraq, Azərbaycan ilə informasiya müharibəsini davam etdirir. 44 günlük müharibə nəticəsində erməni ordusu darmadağın edilib və kapitulyasiya elan edib. İ.Korotçenko deyib: "Bununla belə, biz görürük ki, erməni təbliğatının fəaliyyəti azca da olsa dəyişməyib, o, əvvəlki kimi hücuma keçməkdə davam edir. Buradan çox sadə nəticə çıxarmaq olar: Rusiyaya qarşı "Navalnı sanksiyaları"na analoji olaraq, Azərbaycana qarşı sanksiyalar tətbiq olunması çağırışını edən qüvvələr - qisasçılığın və İkinci Qarabağ müharibəsinin yekunlarına yenidən baxmağın tərəfdarı olan insanlar - yalnız ittiham olunmağa layiqdirlər".

İ.Korotçenkonun sözlərinə görə, Ermənistan qisasçılıq planlarına Avropa və ABŞ-da dəstək axtarmağa çalışır. Ekspert deyib: "Sanksiyalara belə çağırışlar, sadəcə olaraq, gülüncdür və Cənubi Qafqazda siyasi proseslərə kəsərli təsir göstərməyəcək. Hər halda başa düşmək lazımdır ki, ordudan fərqli olaraq erməni təbliğatı təslim olmur: bu təbliğatın həm Ermənistanın rəsmi nümayəndələri, həm də erməni diasporu vasitəsilə fəaliyyət mexanizmi hərbi əməliyyatlar dövründə olduğundan da çox aktivləşib. Buna görə də belə bəyanatları izləmək və onlara reaksiya vermək lazımdır".

"Nasionalnaya oborona" jurnalının baş redaktoru bir məsələyə də diqqəti çəkib ki, Ermənistan Qərbin köməkliyi ilə qisas barədə məsələni qaldırmağa cəhd göstərmək əvəzinə dinc şəraitdə öz həyatını normallaşdırsaydı, daha yaxşı olardı. O deyib: "Ermənistan bu gün ağır maliyyə-iqtisadi vəziyyətdədir, iqtisadiyyat, demək olar ki, yoxdur, bütün sahələr bərbad edilib, dövlət borcu çox böyükdür, faktiki olaraq, defolt ərəfəsindəki vəziyyətdən söhbət gedir. Belə şəraitdə Ermənistan üçün yeganə çıxış yolu - Azərbaycan və Türkiyə ilə mehriban qonşuluq münasibətləri, Rusiya ilə məsuliyyətli müttəfiqlik münasibətləri, regional iqtisadi və nəqliyyat layihələrində iştirakdır. İşğalçı siyasəti ilə özünü belə vəziyyətə salan Yerevanın bu vəziyyətdən başqa çıxış yolu yoxdur".



İqor Korotçenko Ermənistanın beynəlxalq arenada müstəqil oyunçu olmadığından və onun müttəfiqi Rusiyaya qarşı qərbin sanksiyalarına müqavimət göstərməməsindən təəssüfləndiyini də bildirib. Ekspert xatırladıb: "Postsovet məkanında müstəqil siyasət yeridə bilən az ölkə var, onların əksəriyyəti Qərbin maraqlarını bu və ya digər halda nəzərə almağa məcburdurlar. Müstəqil hərəkət etməyi bacaran ölkələr azdır. Real tərəfdaşlar arasında yaxşı, möhkəm iqtisadiyyata və güclü rəhbərliyə malik Qazaxıstan və Azərbaycanın adını çəkməyə dəyər. Bu ölkələr Qərbə məhəl qoymadan öz siyasətlərini yürüdə bilirlər. Sanksiyaların götürülməsi məsələsində AŞ PA-da Azərbaycanın Rusiyanı necə dəstəkləməsini misal çəkmək kifayət edər".

İqor Korotçenko deyib: "Ermənistan siyasi konyunkturdan asılı olan ölkələr sırasına daxildir. Ermənistan 30 ildir deyir ki, guya bizim müttəfiqimizdir. Lakin bizim müttəfiqimiz özünə necə rəva görə bilər ki, hələ Serj Sarkisyan dövründə Yerevanda postsovet məkanında ABŞ-ın ən böyük səfirliyi yaradılsın? ABŞ-ın Ermənistan ilə Rusiya arasında münasibətlərin yaxşılaşdırılmasına səy göstərmədiyi açıq-aydın məlumdur. Bizim müttəfiqimiz Ermənistanın şəhərlərində Corc Sorosun və digər Qərb agentlərinin sponsorluq etdiyi yüzlərlə, bəlkə də minlərlə təşkilatın fəaliyyətinə necə icazə verib? Niyə bizim müttəfiqimiz nasist kollaborasionist Qaregin Njdeyə abidə qoymaqda davam edir? Rusiyanın prinsipial məqamlar üzrə Ermənistana belə sualları olduqca çoxdur".

"Bu gün Rusiyanın Ermənistan ilə belə məsələlər barədə dövlət səviyyəsində ciddi danışması vacibdir. Çünki onunla, bizim müttəfiqimizlə bağlı kifayət qədər çoxsaylı problemlər var. Yerevanın inadcıllıq etdiyi faşizmin qəhrəmanlaşdırılması, yaxud anti-Rusiya sanksiyalarını pisləməyə belə hazır olmaması kimi məqamlarda, görünür, biz ən azından yaxın vaxtlarda ümumi dil tapmayacağıq", - deyə "Nasionalnaya oborona" jurnalının baş redaktoru sonda bildirib.

# Ermənistan problemlər mənggənəsində boğulur

Müharibədəki məğlubiyyət və pandemiya Ermənistanı sosial-iqtisadi baxımdan da uçuruma yuvarlayıb. Dərin böhran hər gün yeni problemlərə yol açmaqdadır. Hökumətin vaxtilə verdiyi vədlər isə söz olaraq qalır, ölkə iqtisadiyyatının dirçəldilməsi üçün kiçicik belə təşəbbüs göstərilmir. Çünki hökumətin heç bir proqramı yoxdur.

Ötən ilin sonunda Ermənistanın dövlət borcu 2019-cu illə müqayisədə 647,2 milyon ABŞ dollar artaraq 7,968 milyard dollara çatıb. Qeyd edilir ki, ölkənin dövlət borcunun əhəmiyyətli dərəcədə artmasına yalnız koronavirus pandemiyası yox, həm də İkinci Qarabağ müharibəsi səbəb olub. Bu məbləğin 7,508 milyard dollarının hökumətin borcu olduğu bildirilir.

Ermənistanın maliyyə naziri Atom Cancuqazyan deyib ki, dövlət borcu 2021-ci ildə də artacaqdır. Bu isə iqtisadiyyat üçün kritik risklər deməkdir. İqtisadçı Suren Parsyan isə qeyd edib ki, Paşinyan baş nazir vəzifəsinə gəldikdən sonra dövlət borcu 1,2 milyard dollar artıb. Serj Sarkisyan hakimiyyəti dövründə isə dövlət borcu 5 milyard dollar artmışdı. O əlavə edib ki, İkinci Qarabağ müharibəsi zamanı silahlanmaya ayrılan kreditlərin həcmi barədə rəsmi məlumat gizlədilir. Bu rəqəm açıqlansa, o zaman Paşinyanın dövründə Ermənistanın xarici borcunun daha böyük olduğu ortaya çıxar.

Belə vəziyyət sosial sahədə də problemləri xeyli artırıb. Bu günlərdə Ermənistanın müdafiə nazirliyinin binası yaxınlığında aksiya keçirən bir qrup keçmiş hərbçi dörd aydır ki, dövlət ödənişlərini ala bilmədiklərini bildirərək pullarını tələb ediblər. Ermənistan mediası yazır ki, bu durum iqtidarın yarıtmaz siyasətinin, sosial sahədə fəaliyyətin fiaskoya uğramasının konkret göstəricisidir. Hakimiyyət xalqı yox, öz maraqlarını düşündüyü üçün Ermənistanda sosial sferada da acınacaqlı vəziyyət yaşanır.

Bu arada Paşinyan hökumətinə qarşı radikal çağırışlar da artmaqdadır. İstefaya getmək istəməyən Paşinyana qarşı terror çağırışları az qala adiləşib. Baş nazir isə özünə qarşı edilən bütün çıxışları birmənalı şəkildə güc yolu ilə susdurmağa üstünlük verir. Əsasən kütləvi həbslər həyata keçirilir, siyasi partiya rəhbərləri, fəallar saxlanılır, həbs edilir.

Maraqlı məqam ondan ibarətdir ki, həbs olunanların müdafiəsinə ilk qalxan "Sasna Tsrer" terrorçu partiyasının rəhbərliyi olub. Partiya bəyan edib ki, əgər tezliklə tutulanlar buraxılmasa, Nikol Paşinyan hökuməti üçün vəziyyət daha acınacaqlı xarakter alacaq. Xatırladaq ki, 2016-cı ildə "Sasna Tsrer" qruplaşması Serj Sarkisyanı hakimiyyətdən getməyə məcbur etmək üçün silahlı qiyam qaldırmış və post-patrul xidmətinin binasına hücum edərək 6 nəfəri girov götürmüşdü. Nikol Paşinyan hakimiyyətə gəldikdən sonra "Sasna Tsrer" terror təşkilatının "xaç atası", o cümlədən qruplaşmanın mənəvi lideri Jirayr Səfilyan həbsdən azad edilmişdi. Səfilyanla yanaşı, təşkilatın digər üzvləri Gevorq Safaryan, Nerses Poğosyan, Qalust Qrigoryan, Hrayr Topçyan, Sasunik Kirakosyan, Ovhannes Petrosyan azadlığa buraxılmışdı. Terror qruplaşması daha sonra partiyaya çevrilərək parlament seçkilərinə də qatılmışdı. Amma indi həmin qruplaşma baş naziri terrorla təhdid edir. Bir sözlə, Paşinyan arzuolunmaz vəziyyətə düşüb: nə ölkənin problemlərini həll edə bilir, nə də normal idarəçilik həyata keçirir. Onun və başçılıq etdiyi hökumətin taleyi böyük sual altındadır.

44 günlük müharibə Ermənistan ordusunun kifayət qədər aciz olduğunu əyani surətdə nümayiş etdirdi. Məğlubiyyətdən sonra erməni ictimaiyyətinə agah oldu ki, ölkə rəhbərliyi düzgün məlumatlar verməyib və xalqı aldatmaqla məşğul olub. Bunu etiraf edən ermənilərin sayı hər gün artmaqdadır. "Çiçəklənən Ermənistan" fraksiyasından olan Ermənistan parlamentinin üzvü Naira Zohrabyan deyib ki, 14 oktyabr tarixində müharibəni dayandırmaq üçün imkan var idi. Həmin tarixə kimi itkilərin sayı rəsmi məlumatlara görə 800-ü keçmirdi: "Oktyabrın 14-də ikinci mərhələdə Qarabağın statusu məsələsini həll etmək imkanı da olmuşdu. Nikol Paşinyan bu təklifi pis Lavrov planı hesab edərək rədd etdi. İndi Qarabağı itirdik, minlərlə həlak olan, minlərlə itkin düşən, minlərlə əlil var. Qarabağın statusu məsələsi isə Əliyevin dediyi kimi, "gorbagor" oldu. Bax belə".

Müharibədən sonra Ermənistanda demoqrafiya problemi də artaraq daha gərgin mərhələyə qədəm qoymuşdur. Görülən bütün tədbirlərə baxmayaraq, ölkədə əhalinin sayı sürətlə azalmaqda davam edir, imkan düşdükcə xaricə köçənlər artır. Əhalinin artım səviyyəsinin get-gedə aşağı düşməsi isə erməni sosioloqlarının hakimiyyətə ünvanlanmış xəbərdarlıqlarının çoxalmasına səbəb olub. Ancaq real vəziyyət Ermənistanın faktiki olaraq demoqrafik böhran yaşadığını, bu problemin həlli perspektivinin olmadığını göstərir. Erməni mətbuatının verdiyi məlumata görə, aparılan araşdırmalar göstərir ki, miqrasiya templəri artan xətt üzrə davam etsə, 2025-ci ilədək respublikada əhalinin sayı 1,5 milyon nəfər azalacaq.

Qeyd edək ki, fevralın 1-dən etibarən Rusiya Ermənistan vətəndaşları üçün hava sərhədini bir aylıq açdığını elan edib. Ermənistan parlamentinin üzvü Naira Zöhrabyan bildirib ki, erməni ailəsinin ölkədən çıxıb getmək üçün bilet aldığına görə necə sevindiyini görmək lazım idi: "Moskvaya bir tərəfə bilet 700 dollara satılırdı. Əgər az sonra Moskvaya bilet hərracda satılarsa, təəccüblənməyin. Gündəlik çörək problemini həll etmək üçün Ermənistanı tərk edən ermənini günahlandırmağa mənim haqqım yoxdur".

Beləliklə, bir daha aydın olur ki, Ermənistan cəmiyyətində pessimizm baş alıb gedir. İqtidar problemlərin həllində çıxılmaz vəziyyətə düşüb, müxalifət isə aksiyaları davam etdirir. Bu vəziyyət bütövlükdə ölkədə idarəçiliyi iflic vəziyyətinə salıb.

***Elçin CƏFƏROV, "Azərbaycan"***

# Prokurorluq: "Füzuli rayonunda üç nəfərin minaya düşməsi ilə bağlı cinayət işi başlanıb"

Fevralın 2-də saat 17 radələrində Azərbaycan vətəndaşları - 1981-ci il təvəllüdlü Bəhruz İmanov, 1992-ci il təvəllüdlü Azad Muxtarov və 1984-cü il təvəllüdlü Rafis Məmişov "QAZ 53" markalı 11-BJ-263 dövlət nömrə nişanlı avtomobillə Füzuli rayonunun işğaldan azad edilmiş Yuxarı Yağlıvənd kəndi ərazisində hərəkətdə olarkən tank əleyhinə minaya düşüblər.

Füzuli Rayon Prokurorluğunun AZƏRTAC-a daxil olan məlumatında bildirilib ki, hadisə nəticəsində B.İmanov həlak olub, A.Muxtarov və R.Məmişov isə müxtəlif dərəcəli bədən xəsarətləri alıblar. Faktla bağlı Füzuli Rayon Prokurorluğu tərəfindən Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və ya aparma), 116.0.6-cı (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma) və digər maddələri ilə cinayət işi başlanıb.

Hazırda zəruri istintaq hərəkətləri həyata keçirilir.

# "YAŞAT" Fondu şəhidlərimizin ailə üzvlərinin tibbi ehtiyaclarının ödənilməsi ilə bağlı işləri davam etdirir

"YAŞAT" Fondu tərəfindən şəhidlərimizin ailə üzvlərinin tibbi ehtiyaclarının ödənilməsi ilə bağlı işlər davam etdirilir.



Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, şəhidimiz Elfaq Nağıyevin atası Azad Nağıyevin, Eltun Qasımovun atası Vüqar Qasımovun əməliyyat xərcləri fond tərəfindən qarşılanıb.

Şəhidimiz Tural Qarayevin anası Səmayə Qarayevanın və həyat yoldaşı Durdana Qarayevanın da müalicə və əməliyyat xərcləri fond tərəfindən təmin ediləcək.

Müvafiq müayinə və müalicə tədbirləri davam etdirilir.

Xatırladaq ki, "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədilə yashat.gov.az portalı istifadəyə verilib.

Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau

Həmçinin Fondun 8110 "Çağrı Mərkəzi@" fəaliyyət göstərir.

# Sərhəd mühafizə infrastrukturunun yaradılması üzrə tədbirlər davam edir



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müzəffər Ali Baş Komandanlığı altında Vətən müharibəsində qazanılmış möhtəşəm Qələbə sayəsində dövlətimizin ərazi bütövlüyü təmin edildikdən, o cümlədən ölkəmizin Ermənistan Respublikası ilə dövlət sərhədi işğaldan azad edildikdən sonra bu ərazilərdə zəruri sərhəd mühafizə infrastrukturunun yaradılması üzrə tədbirlər davam etdirilir.

Ermənistan Silahlı Qüvvələrinin dövlət sərhəd xətti boyu minaladığı ərazilər Dövlət Sərhəd Xidmətinin mühəndis-istehkam bölmələri tərəfindən hazırda minalardan təmizlənilir.

31 yanvar tarixində Qubadlı rayonunun Məlikəhmədli kəndi yaxınlığında 120 ədəd piyada əleyhinə mina sərhədçi istehkamçılar tərəfindən zərərsizləşdirilmişdir.

# Dövlət sərhədində düşmən tərəfindən atəşkəs rejimi pozulmuşdur

Azərbaycan Respublikasının Ermənistan ilə dövlət sərhədində düşmən tərəfinin təxribatları davam edir.

02 fevral tarixində saat 05:00 radələrində Ermənistan Silahlı Qüvvələrinin Qazax rayonunun işğal altında olan Aşağı Əskipara kəndi ərazisindəki bölmələri tərəfindən həmin istiqamətdə dövlət sərhədinin müdafiə və mühafizəsini həyata keçirən Dövlət Sərhəd Xidmətinin sərhəd-döyüş məntəqəsinə doğru pulemyot silahdan 20 dəfə atəş açılmaqla atəşkəs rejimi pozulmuşdur.


## "Azərsu" ASC daxili vəsaiti hesabına elektron satınalma vasitəsilə mərkəzdənqaçma nasosların ehtiyat hissələrinin satın alınması üzrə *açıq tender elan edir*

Malgöndərənlər (podratçılar) https://www.etender.gov.az - dövlət satınalmalarının vahid internet Portalından tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: Tender predmeti üzrə oxşar təcrübənin mövcudluğu (son 3 (üç) il üzrə mal-materialların təchizatı və həcmi üzrə icra edilmiş ən azı 2 (iki) müqavilə), çatdırılma müddəti (15 bank günü müddətində) və ən aşağı qiymət təklifi.

Malgöndərənlər (podratçılar) qeyd olunan məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra əsas şərtlər toplusunu dövlət satınalmalarının vahid internet Portalından əldə edə bilərlər.

Tenderdə iştirak haqqı 300 manatdır.

**Təşkilat: "Azərsu" ASC**
**VÖEN: 9900001751**
**Bank: "Kapital Bank"ASC-nin 1 saylı Nəsimi filialı**
**Kod: 200112**
**VÖEN: 9900003611**
**M/h: AZ37NABZ 01350100000000001944**
**S.W. İ. F. T. BIK: AIİBAZ2X**
**H/h: AZ65AİİB 33070019441100216111**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqını təsdiq edən sənəd;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *malgöndərənlərin (podratçıların) son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *malgöndərənin (podratçının) son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*
- *malgöndərənin (podratçının) tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Malgöndərənlər (podratçılar) tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **26 fevral 2021-ci il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə **09 mart 2021-ci il saat 18:00-a** qədər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə təqdim etməlidirlər.

Elektron satınalmanın açılışı **10 mart 2021-ci il saat 18:00-da** dövlət satınalmalarının vahid internet Portalında həyata keçiriləcəkdir.

***Tender komissiyası***



## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi *açıq tender elan edir*

BDYPİ-nin YPXA-nın, Bakı şəhəri DYPİ və respublikanın rayon DYPB-lərinin xidməti istifadəsində olan xüsusi nəzarət-ölçü cihazlarının və Qeydiyyat imtahan və texniki baxış, texniki qulluq və servis işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdır. Müsabiqəyə daxil olduqdan sonra "ASAN Ödəniş"lə "ödə" düyməsini sıxaraq aidiyyəti keçid vasitəsilə ödənişi etdikdən sonra müsabiqədə iştirak etmək olar. Əlaqələndirici şəxs - Əvəz Məmmədzadə, Tel: 012 590-81-60.

İştirak haqqı 400 (dörd yüz) manatdır.
Təşkilat - Baş Dövlət Yol Polisi İdarəsi

VÖEN: 9900063851
H/h: AZ45CTRE00000000000002078506
Dövlət Xəzinədarlığı Agentliyi
VÖEN: 1401555071
Kod: 210005
M/h: AZ41NABZ01360100000000003944
SWİFT Bik: CTREAZ22

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 23 fevral 2021-ci il saat 14:00-dək, tender təklifi ilə bank zəmanəti sənədlərini isə 03 mart 2021-ci il saat 14:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 04 mart 2021-ci il saat 14:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD - tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

# Sumqayıt Telekommunikasiya Qovşağı
## *açıq tender elan edir*

- Sumqayıt TKQ-nın 654/655 saylı EATS-nin dam örtüyünün dəyişdirilməsi işlərinin satın alınması

**İştirak haqqı: 100 manat**

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını "ASAN ödəniş" sistemi vasitəsilə ödədikdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu etender.gov.az vahid satınalma Portalından əldə edə bilərlər.

**Müəssisənin adı: Sumqayıt Telekommunikasiya Qovşağı**
**Hesab nömrəsi: AZ59AZPO90505461200420300001**
**Müəssisənin VÖEN-i: 9900063981**
**Ünvan: AZ5000, Sumqayıt şəh., Azərbaycan -15**
**Bankın adı: "Azərpoçt" MMC Sumqayıt filialı**
**Kodu: 690506**
**Bankın VÖEN-i: 9900037711**
**Müxbir hesab: AZ76NABZ 01350100000000094944**
**S.W.I.F.T BİK: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri vahid satınalma Portalında yerləşdirməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 (otuz) bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 (altmış) bank günü qüvvədə olmalıdır);*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi və sosial müdafiə orqanlarından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında maliyyə hesabatı;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *tender təklifini və müqaviləni imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənədin (vəzifəyə təyin edilməsi barədə əmr və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə) iddiaçı tərəfindən möhürlə təsdiq edilmiş surəti;*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının analoji işlər üzrə iş təcrübəsini təsdiq edən sənədlər;*
- *iddiaçının müştəri bazası haqqında məlumatlar;*
- *Azərbaycan Respublikası Dövlət Statistika Komitəsindən mikro, kiçik və ya orta sahibkarlıq subyektləri olduğunu təsdiq edən arayış;*
- *təklif olunan malların mənşə və keyfiyyət sertifikatları;*
- *tenderin əsas şərtlər toplusunda nəzərdə tutulan və tenderin əsas şərtlər toplusunun tələblərindən irəli gələn digər sənədlər.*

İddiaçı təqdim edəcəyi malların keyfiyyətini təsdiqləyən hər hansı digər məlumatları da təqdim edə bilər.

Azərbaycan Respublikasından olan iddiaçıların tenderə təqdim edəcəkləri bütün sənədlər Azərbaycan Respublikasının dövlət dilində tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

Tender təkliflərinin qiymətləndirilməsi zamanı onların bu sahədəki çoxillik təcrübəsi, yerli şirkətlərə göstərdiyi təchizat işinin keyfiyyəti, müqavilə imzaladıqları şirkətlər tərəfindən təqdim olunan tövsiyə məktublarının olması nəzərə alınacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün müvafiq sənədləri (tender təklifi və tender təklifinin bank təminatı istisna olmaqla) 23 fevral 2021-ci il saat 11:00-dək, tender təklifini və tender təklifinin bank təminatını isə 03 mart 2021-ci il saat 17:00-dək vahid satınalma Portalında yerləşdirməlidirlər.

İddiaçıların təklifləri 04 mart 2021-ci il saat 11:00-da vahid satınalma Portalında açılacaqdır.

***Tender komissiyası***

# "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC Bakı şəhər ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin layihə smeta sənədlərinin hazırlanması və Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması ilə əlaqədar
## *açıq tender elan edir*

Tender 2 LOT üzrə keçirilir.

LOT- 1. Bakı şəhər ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin layihə smeta sənədlərinin hazırlanması.

LOT- 2. Bakı şəhəri ərazisində dövlət mənzil fonduna aid binaların təmiri üzrə layihə-smeta sənədlərinin hazırlanması.

Tender iştirakçılarına təklif edilir ki, dövlət satınalmalarının https://www.etender.gov.az/ vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdır. Tenderdə iştirak etmək istəyən təşkilatlar iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər (Əlaqələndirici şəxs- Əhməd Məmmədov, 496-52-05).

İştirak haqqı hər LOT üçün 200 (iki yüz) manatdır.

İddiaçılar iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər:

Təşkilat - Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

**H/H: AZ22IBAZ38030019446253269215**
**VÖEN: 1702563281**
**Kod: 805625**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**SWİFT: IBAZAZ2X**

İştirak haqqı heç bir halda qeri qaytarılmır və ödənişlər ancaq "ASAN ödəniş" vasitəsilə həyata keçirilməlidir.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərfin açıldığı tarixdən sonra ən azı 30 bank günü müddətində qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən sonra ən azı 60 bank günü müddətində qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanlarından arayış;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *iddiaçının müvafiq sahədə fəaliyyət göstərməsinə icazə verən lisenziya;*
- *iddiaçının bu sahədə peşəkarlığını əks etdirən məlumatlar;*
- *əsas işçi heyəti və idarəetmə aparatında çalışanların ixtisasları və iş təcrübələri barədə məlumat;*
- *iddiaçının texniki imkanları (inzibati və istehsalat sahələri, nəqliyyat vasitələri və digər avadanlıqları) barədə məlumat;*
- *son 3 ildə iddiaçı tərəfindən icra edilmiş oxşar layihələr barədə məlumat.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 23 fevral 2021-ci il saat 11:00-dək, tender təklifi ilə bank zəmanəti sənədlərini isə 03 mart 2021-ci il saat 18:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri 04 mart 2021-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

*QEYD - tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır. Tenderdə yalnız "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununun 50-1.1-ci maddəsində göstərilən meyarlara uyğun gələn iddiaçılar iştirak edə bilərlər.*

***Tender komissiyası***

# Azərbaycan Respublikası Səhiyyə Nazirliyi "Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi" PHŞ malların (işlərin və xidmətlərin) satın alınması ilə bağlı
## *açıq tender elan edir*

**LOT-1.** Səhiyyə Nazirliyinin istifadəsində olan informasiya sistemlərinin proqram təminatı kompleksinin 2021-ci ildə texniki dəstək və inkişafı xidmətlərinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, yuxarıda qeyd edilən işlərin yerinə yetirilməsi üçün öz təkliflərini dövlət satınalmalarının https://www.etender.gov.az vahid internet Portalında təqdim etsinlər.

Tenderdə iştirak etmək məqsədilə iştirakçılar 200 manat məbləğində iştirak haqqını ASAN ödəniş vasitəsilə qeyd olunan hesaba köçürdükdən sonra tender haqqında məlumat və əsas şərtlər toplusunu dövlət satınalmalarının https://www.etender.gov.az vahid internet Portalından əldə edə bilərlər.

**Səhiyyənin İnformasiyalaşdırılması Mərkəzi PHŞ**
**VÖEN: 1401798401**
**DXA**
**Kod: 210005**
**H/h №: AZ97CTRE00000000000002128204**
**M/H №: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T.BİK: CTREAZ22**
**VÖEN: 1401555071**
**Fond 7, maddə 142330**

Tenderdə əsas şərtlər toplusu Azərbaycan dilindədir.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşagıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün vahid elektron Portal vasitəsilə müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *digər sənədlər.*

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 19 fevral 2021-ci il saat 16:30-a qədər, tender təklifi və bank təminatını isə 01 mart 2021-ci il saat 16:30-a qədər dövlət satınalmalarının https://www.etender.gov.az vahid internet Portalından təqdim etməlidirlər.

İddiaçıların təklif zərfləri 02 mart 2021-ci il saat 16:30-da açılacaqdır.

***Tender komissiyası***

# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"
## *qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 440-46-94, (012) 441-19-91* |
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi 2 saylı Bakı DOST Mərkəzi sanitariya-epidemioloji işlərin kotirovka sorğusu üsulu ilə satın alınmasını həyata keçirir

Kotirovka sorğusunda iştirak etmək üçün qiymət təklifi (nəqliyyat, sığorta, gömrük rüsumları və digər xərclər nəzərə alınmaqla) digər zəruri sənədlər 10 fevral 2021-ci il saat 18:00-dək Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım 30B ünvanında yerləşən ofisinə təqdim olunmalıdır (telefon: 012 525-50-26, daxili 9234). Zərflər 11 fevral 2021-ci il saat 11:00-da həmin ünvanda açılacaqdır.

Maraqlananlar müvafiq məlumatları 2 saylı Bakı DOST mərkəzinin AZ1044, Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsi, Almas İldırım 30B ünvanında yerləşən ofisindən yazılı müraciət etməklə əldə edə bilərlər.

***Tender komissiyası***

# BİLDİRİŞ

Azərbaycan Respublikasının Mərkəzi Bankı üçün 19 litrlik qablaşdırılmış içməli dispenser suyunun satın alınması və Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşları üçün südün satın alınması ilə bağlı kotirovka sorğuları üzrə Satınalmalar komissiyasının 08 yanvar 2021-ci il tarixli qərarına əsasən 1-ci məsələ üzrə "Damla Group" MMC, 2-ci məsələ üzrə isə "Atena" MMC qalib elan edilmişdir.

Qalib şirkətlərlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# BİLDİRİŞ

Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi üçün ISO beynəlxalq standartları üzrə sertifikatların satın alınmasına dair 02 dekabr 2020-ci il tarixdə elan olunmuş müsabiqə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.2-ci maddəsinə əsasən ləğv edilir.

***Tender komissiyası***

# BİLDİRİŞ

"Azərbaycan" qəzetinin 06 noyabr 2020-ci il tarixli nömrəsində dərc edilmiş və dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə keçirilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının xəzinə infrastrukturunun fəaliyyətini təmin etmək üçün pulsayan maşınların satın alınması ilə əlaqədar açıq tender üzrə Tender komissiyasının 19 yanvar 2021-ci il tarixli qərarına əsasən **"Altair Technologies" MMC** qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin rəhbərliyi və kollektivi Dövlət Məşğulluq Agentliyi İdarə Heyəti sədrinin müavini Cəmaləddin Quliyevə anası

**XƏDİCƏ QULİYEVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Respublika Dəri-Zöhrəvi Mərkəzinin direktoru və kollektivi mərkəzin həkimi Azər Qocayevə atası

**VƏLİ MÜƏLLİMİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar
Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1
"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet
Tiraj 5173
Sifariş 224
Qiyməti 40 qəpik